

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 17 (24.503)

9 may 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Tarixin ən böyük azərbaycanlısı Heydər Əliyev



***"Mən azərbaycanlıyam!" deyəndə ilk xatırlanan şəxs Ulu Öndər Heydər Əliyevdir. Çünki müasir Azərbaycan dövlətinin hər sütununun təməli Onun zəhməti, yuxusuz gecələri, mübarizəsi ilə qurulub. Dahi şəxsiyyət Heydər Əliyev sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi dövrdə gördüyü işlərlə xalqımızın qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin yaratmışdı. Ulu Öndər öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub, xalqı müstəqil, güclü dövlətə sahib olmaq arzusuna qovuşdurub. Bu gün Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarını əhatə edərək onların milli istinad mənbəyinə çevrilib.***

## Ulu Öndər Heydər ƏLİYEV:

***"Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"***

### *Ən böyük xilaskar, ən böyük azərbaycanlı*

Azərbaycan dövləti 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul etməklə öz suverenliyini bütün dünyaya bəyan etdi. Lakin sonrakı illər ölkənin müstəqilliyi və dövlətçiliyi üçün ciddi sınaqlarla yadda qaldı. Həmin dövrdə Azərbaycanın ərazi bütövlüyünə qarşı təcavüz siyasəti aparılır, ölkə daxilində isə siyasi böhran, idarəetmədə səriştəsizlik və anarxiya halları hökm sürürdü. Bütün bunlar gənc dövlətin mövcudluğunu ciddi təhlükə qarşısında qoyurdu. Həmin dövrdə bir tərəfdən mənfur qonşumuz Ermənistan separatçılıq siyasəti yürüdərək ərazi iddiası ilə Azərbaycanı müharibəyə cəlb etmiş, digər tərəfdən isə yeni yaradılmış suveren dövlətə məsuliyyətsiz şəxslər rəhbərlik edirdi.

Belə vəziyyət cəbhədə gərginliyi daha da artırmaqla yanaşı, hakimiyyət uğrunda mübarizəni də qızışdırırdı. Bundan istifadə edən Ermənistan silahlı qüvvələri havadarlarının köməyi ilə Qarabağdan azərbaycanlıları zor gücünə qovur və etnik təmizləmə aparırdı. Hakimiyyətdə olanlar isə xalqı səfərbər edib bunun qarşısını ala biləcək tədbirlər görmək gücündə deyildilər və aciz durumda idilər. Digər tərəfdən isə ölkə daxilində hakimiyyət uğrunda çəkişmələr vətəndaş müharibəsinə çevrilmişdi. 1993-cü ilin yayında vəziyyət fəlakət həddinə çatanda, belə ağır bir zamanda xalq ümid dolu nəzərlərini dahi şəxsiyyət Heydər Əliyevə, Onun həmin dövrdə yaşayıb fəaliyyət göstərdiyi Naxçıvan torpağına çevirdi.

Azərbaycan xalqının iradəsi və təkidi ilə təcrübəli dövlət xadimi, görkəmli siyasətçi Heydər Əliyev müstəqil dövlətimizin uçurum qarşısında qaldığı bir vaxtda yenidən ölkənin siyasi hakimiyyətinə qayıtdı. Millətin sönməkdə olan müstəqillik arzuları canlandı, xalqımızda bu günə inam, sabaha ümid yarandı. 1993-cü ilin iyun ayında Ali Sovetin Sədri seçilən Heydər Əliyev xalq qarşısında çıxış edərək mövcud dövlət böhranının aradan qaldırılmasının yollarını, müstəqil Azərbaycan dövlətinin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyənləşdirdi. Beləliklə, uzun sürən daxili çəkişmələrdən sonra ölkədə ilk dövrlərdə kövrək olsa da, ictimai-siyasi sabitlik yarandı. Sonrakı dövrdə yaşananlar isə dövlətimizin güclənməsinə səbəb olmaqla yanaşı, atəşkəsin imzalanmasına şərait yaratdı.

Cənubi Qafqaz regionunda müharibənin dayanması və sabitliyin yaranması xarici neft şirkətlərinin Azərbaycana inamını artırdı və 1994-cü ilin sentyabrında ARDNŞ-lə dünyanın aparıcı neft şirkətləri arasında respublikamızda iqtisadi tərəqqinin əsasını qoymuş "Əsrin müqaviləsi" imzalandı.

Azərbaycanda iqtisadi tənəzzülü cilovlamaq, ordu quruculuğu ilə məşğul olmaq üçün vaxt və imkan yarandı. Həmin dövrdə Ulu Öndər Heydər Əliyev tərəfindən bu taleyüklü addımlar atılmasaydı, Azərbaycan dövlətini yaratmaq da, bu gün ölkəmizin ərazi bütövlüyünü erməni faşizmi üzərində əldə olunmuş möhtəşəm qələbə ilə təmin etmək də mümkün olmayacaqdı. Bu gün müasir müstəqil Azərbaycanın taleyini Ümummilli Lider Heydər Əliyevin taleyindən ayrılıqda təsəvvür etmək mümkün deyil. Heydər Əliyev bütün zamanların ən böyük azərbaycanlısı və Azərbaycanın ən böyük xilaskarıdır.

### *Zəfərə və tərəqqiyə aparan yol Heydər Əliyev yoludur*

Həyatını Azərbaycan xalqına həsr edən müasir Azərbaycanın memarı Heydər Əliyev Vətənin ən çətin dövrlərində dövlət sükanını ələ alaraq ölkəni vətəndaş müharibəsindən xilas etdi, müstəqilliyini qorudu. O, Azərbaycan xalqının birliyini təmin etdi, "Azərbaycançılıq" ideyasını inkişaf etdirdi. Bugünkü bütöv Azərbaycan da məhz Onun əsəridir. Bu səbəblə görkəmli dövlət xadimi Heydər Əliyev xalq tərəfindən "Ən böyük azərbaycanlı" olaraq qəbul edilir. Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin apardığı quruculuq işləri və həyata keçirdiyi uzaqgörən siyasət sayəsində əldə olunan nailiyyətlər bir daha təsdiq edir ki, möhtəşəm tarixi qələbə qazanan Azərbaycan Ulu Öndərin ideyalarına uyğun olaraq gündən-günə daha da inkişaf edəcək və getdikcə daha qüdrətli, daha firavan bir ölkəyə çevriləcək.

***"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"*** – bu kəlamları Ulu Öndərin dilindən eşidəndə hər bir kəs qürur duyur öz Vətəni ilə. Və bu gün dünyanın müxtəlif yerlərində yaşayan 50 milyondan çox azərbaycanlı qalib, bütöv Azərbaycanı ilə fəxr edir, azərbaycanlı olmağı ilə qürur duyur.

**Ramiyə ƏKBƏROVA**

# Xalqın inamını, etimadını qazanmaq liderlik, güvənc yeri olmaq isə ən böyük xoşbəxtlikdir



## Ulu Öndər Heydər ƏLİYEV:

***"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır."***

# Ulu Öndər xatirələrdə

***"Mən balaca bir evdə, zəhmətkeş ailədə, bir yaz günü dünyaya göz açmışam. Yəqin ki, dünyaya gəlişimlə beş-on, lap uzağı otuz-qırx nəfər sevinib, yaxud da biri digərindən muştuluq alıb. Bu gün, bəlkə də, bir qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə, Azərbaycanımız üçün dünyaya gətirib. Niyə belə qətiyyətlə deyirəm? Anamı mən cəmi Azərbaycana bənzədirəm. Ana qibləgahdır! Mənim Azərbaycanım həm qibləgahdır, həm də ziyarətgah. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm, bundan sonrakı günlərimi də ona qurban deyirəm".*** Ulu Öndərin sözləridir, ömrünün, bəlkə də, ən xoşbəxt günlərini yaşayanda dilə gətirmişdi bu sözləri. Bəli, o dünyaya bütöv bir xalq üçün gəlmişdi. Zaman bunu sübut etdi və həmin dövrün insanları bu möhtəşəm tarixə şahid olmaq şərəfini qazandı. Bugünkü müsahiblərimiz onlardan bir neçəsidir .

Babək rayon Nehrəm qəsəbə sakini Sədaqət Mahmudovun 71 yaşı var. O, Azərbaycan Respublikasının Əməkdar müəllimidir: "Tarixi oxumaq başqa, ona canlı şahidlik etmək isə tamam fərqlidir", – deyir Əməkdar müəllim.

"Bizim və dünyanın gözləri önündə tarix yazdı Ulu Öndər. Hələ 1969-cu ildə ilk dəfə Azərbaycanda siyasi hakimiyyətə gələn Heydər Əliyev Azərbaycan xalqı üçün misli görünməmiş işlər görməyə başladı. Dilimiz, milli mədəniyyətimiz özümüzə qayıtdı. Azərbaycan dilinin rəsmi dil kimi qəbul edilməsi, torpaqlarımızın erməniləşdirilməsinə son qoyulması, 14 min gəncin sovet məkanının ən böyük təhsil ocaqlarına təhsil almağa göndərilməsi, zabit kadrların yetişdirilməsi dahi rəhbərin bu xalq qarşısındakı misilsiz xidmətlərindən bir neçəsidir. 1978-ci ildə Babək rayonunun yaradılması haqqında verilən qərar isə həmin dövrdə hər kəsin öhdəsindən gələ bilməyəcəyi bir qərar idi. Sovetlərin əsarət zəncirinin ən sıx vaxtında xalq qəhrəmanı, azadlıq fədaisi Babəkin adını daşıyan bir rayon yaratmağı ancaq Heydər Əliyev bacara bilərdi. Həmin görüşdə iştirak edəndə gənc bir müəllim idim və Onun dediyi hər kəlməni yaddaşıma həkk edirdim. Onun kimi bir lideri yetişdirən bir xalqın nümayəndəsi olaraq qürur duyurdum".

1990-cı illərin çətin günlərində O bizim ona olan inamımızı bir daha ən yüksək zirvəyə daşıdı, yurduna qayıdıb bizimlə birlikdə oldu. Çıraq işığında, odun peçinin başında bu xalq üçün mühüm qərarlar verdi. Bugünkü qalib Azərbaycan Onun əsəridir.

Nehrəm qəsəbə sakini Tofiq Abutalıbovun 84 yaşı var. O, alim-aqronom, Yeni Azərbaycan Partiyasının Babək rayon Nehrəm qəsəbə ərazi təşkilatının sədridir. Ulu Öndərlə bağlı xatirələrini dilə gətirəndə uzaqlara dikilən baxışlarından yaxın dost, yoldaş həsrəti duyulur bu el ağsaqqalının.

"Heydər Əliyev bir evin yox, bütöv bir xalqın atası idi. O, torpağın, elin, Vətənin qədrini bilən bir insan idi. Bütöv Azərbaycanı inşa edən, özü isə sadə həyat yaşayan bir insan. Tanrı Ona fövqəladə bir güc bəxş etmişdi ki, xalqının çətin günündə onun imdadına yetişə bilsin. Ulu Öndərin 1990-cı illərin çətin günlərində Naxçıvana gəlişi bütün naxçıvanlılar tərəfindən sevinclə qarşılandı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bütün mənalı ömrü boyu daim xalqımızın güvənc yeri olub. Dahi şəxsiyyət muxtar respublikamızın ən çətin günlərində – 1990-cı il iyul ayının 22-də Naxçıvana gəlib, naxçıvanlılar Onu, O da Naxçıvanı qoruyub. Həmin il 340 nömrəli Nehrəm seçki dairəsindən Ulu Öndərin Azərbaycan SSR Xalq Deputatlığına namizədliyi irəli sürüldü. Görkəmli dövlət xadimi Nehrəmə gələrək burada seçicilərlə görüşüb. Onun seçicilərlə görüşdüyü həmin ünvan bu gün Nehrəmdə müqəddəs bir yer sayılır. Bu ünvanda Heydər Əliyev Parkı salınıb, Ümummilli Liderin yüksəklərə qaldırdığı Azərbaycan Bayrağı parkın mərkəzində ucaldılıb".

Müsahibim dahi rəhbərin Nehrəmi qeyrətli insanlar kəndi adlandırdığını vurğulayır. Qeyd edir ki, Ulu Öndər Bakıya qayıtdıqdan sonrakı illərdə Naxçıvanı, xüsusilə Nehrəm kəndini diqqətdə saxlayırdı. Alim-aqronom Ulu Öndərin on nəfər Nehrəm sakinini Bakıya dəvət edib onlarla görüşdüyündən bəhs edir və diqqətə çatdırır ki, həmin görüşdə dahi rəhbər insanları narahat edən məsələlərdən danışıb, nehrəmliləri dinləyib, bu qədim kəndin sakinlərinin rastlaşdıqları çətinliklərin aradan qaldırılması üçün göstərişlər verib.

Həmsöhbətim vurğulayır ki, Heydər Əliyev bu xalqın qəlbində daim yaşayacaq. O təkcə xüsusi günlərdə yada düşmür, hər saat, hər saniyə var və hər zaman da var olacaq.

Sədərək rayonu, Sədərək kənd sakini Həsən Zamanovun 89 yaşı var. O, sağlamlığını Sədərək uğrunda gedən döyüşlərdə itirib. Yazın gəlişi ilə yaşıllığa bürünən Sədərək kəndində sadə kənd evinin üzü dağlara baxan eyvanında əyləşib uca dağlara tamaşa edir və Ulu Öndərin Sədərəyə gəlişi barədə danışır bizə.

"Həmin il çox çətin keçdi qış. Dizə kimi yağan qar, qaranlıq və soyuq evlərdə başsız qalan ailələr, səngərdə ac-susuz qarın içində dayanıb düşmənə sipər olan bizlər. Mərkəzi hakimiyyət isə sanki unutmuşdu bu boyda Naxçıvanı. Düşmən Sədərəyə od yağdırır, onların buz tutmuş qəlbi heç ərimirdi. Torpağımızı canımız hesabına qoruduq və dözdük, Heydər Əliyev gələn gün isə bax bu dağların başına (əli ilə Ucu Biz dağını göstərir) günəş doğuldu. İstisi bizi isitdi, alovu isə düşməni yandırıb məhv etdi. Onun gəlişi səngərdəki döyüşçüyə də, evindən didərgin düşmüş kəndliyə də ümid oldu. Gəldi, düşmən gülləsinin qarşısında dayandı və onu öz zəkası, siyasəti ilə susdurdu.

Heç yadımdan çıxmaz, elə söz vaxtına çəkər. İlin bu vaxtı idi. May ayı. Ucu Bizdə qanlı döyüş gedirdi, qardaşım oğlu Farizlə birlikdə bir neçə eloğlu orada şəhidlik şərbəti içdi, mən isə ağır yaralandım. Şəhidlər 18 gün düşmənin güllə yağmuru altında qaldı, götürə bilmədik. Yenə O gəldi, aldı igidlərin nəşini düşmənin əlindən, ailələrinə verdi, bizi isə Ərzuruma xəstəxanaya göndərdi. Körpü ("Ümid" körpüsünü deyir) hələ hazır deyildi, xüsusi helikopterlərlə bizi Arazın o tayına keçirib Ərzuruma müalicəyə apardılar. Günlər sonra özü də gəldi bizi görməyə. Onun qayğıkeş əlini hələ də çiynimdə hiss edirəm.

Bəli, onu sevən hər kəs hələ də o qayğıkeş əli öz çiynində hiss edir. Heydər Əliyev bütöv bir xalqın xilaskarı, bir dövlətin memarı, bugünkü Azərbaycanın səbəbkarıdır. Vətənimizdə Onun sevgisinin qonaq olmadığı ürək yoxdur. Ancaq biz naxçıvanlıların qəlbində və xatirəsində Heydər babamızın yeri tamam başqadır. Bizi bir-birimizə bağlayan ən möhkəm bağ isə bu qədim torpağı birlik olub xilas etməyimizdir.

Ulu Öndərin dediyi kimi: ***"Sizinlə məni bağlayan təkcə bu torpaqda doğulmağım, böyüyüb həyata atılmağım deyil. Sizinlə məni bağlayan Azərbaycan Respublikası, o cümlədən muxtar respublika üçün çox ağır bir dövrdə – 1990-cı ildən sizinlə bir yerdə yaşamağım, Naxçıvanı sizinlə birgə qorumağımdır".***

**✍ Ramiyə ƏKBƏROVA**

# Azərbaycan-İtaliya strateji tərəfdaşlığı:

## siyasi dialoqdan enerji təhlükəsizliyi və çoxşaxəli əməkdaşlığa



*Prezident İlham Əliyevin həyata keçirdiyi praqmatik siyasət və çevik diplomatiya nəticəsində Azərbaycan bu gün qitələri birləşdirən, uzaq coğrafiyaları yaxınlaşdıran nümunəvi, etibarlı tərəfdaş kimi çıxış edir. Ölkəmiz həm ikitərəfli, həm də çoxtərəfli formatlarda siyasi, iqtisadi və ticarət əməkdaşlığının genişlənməsinə, beynəlxalq münasibətlər sistemində qarşılıqlı etimadın möhkəmlənməsinə mühüm töhfələr verir. Bu baxımdan, Azərbaycan-İtaliya münasibətləri xüsusi əhəmiyyət daşıyan və gələcək üçün böyük perspektiv vəd edən strateji əməkdaşlıq nümunəsidir. İkitərəfli əlaqələr siyasi dialoq, enerji təhlükəsizliyi, yüksək həcmli ticarət dövriyyəsi, qarşılıqlı investisiyalar, sənaye və texnologiya əməkdaşlığı, eləcə də mədəni-humanitar inteqrasiya kimi bir-birini tamamlayan istiqamətlər üzrə inkişaf edir. Azərbaycan-İtaliya münasibətləri təkcə iki ölkənin maraqlarına xidmət etmir, eyni zamanda Avropa ilə Cənubi Qafqaz arasında etibarlı tərəfdaşlıq körpüsü rolunu oynayaraq regional və qlobal sabitliyə mühüm töhfə verir. Məhz bu çoxşaxəli və dərinməzmunlu əməkdaşlığın fonunda mayın 4-də İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin Azərbaycana səfəri, səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirilən təkbətək və geniş tərkibdə görüşlər xüsusi əhəmiyyət daşıyır. Bu səfər bir tərəfdən strateji tərəfdaşlığın real nəticələr üzərində qurulduğunu nümayiş etdirir, digər tərəfdən də enerji, investisiya, hərbi-texniki və yeni iqtisadi istiqamətlər üzrə əməkdaşlığın daha da genişləndirilməsi üçün imkanlar açır.*

### *Tarixi əsaslar və strateji inkişaf yolu*

Zəngin ənənələrə malik Azərbaycan-İtaliya münasibətləri ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra diplomatik əlaqələr zəminində böyük inkişaf yolu keçib. Cənubi Qafqaz ölkələri arasında ilk dəfə 1997-ci ildə İtaliyanın Azərbaycanda, 2003-cü ildə isə Azərbaycanın İtaliyada səfirliyi açılıb. Son illərdə ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, bir sözlə, bütün sahələrdə əməkdaşlıqlar öz əhatə dairəsini daha da genişləndirib, çəkisini artırıb. Çoxtərəfli əlaqələrin, çoxölçülü strateji münasibətlərin, eyni zamanda bəslənilən rəğbətin, etimadın nəticəsidir ki, İtaliya dövlət səviyyəsində "Azərbaycan ili" elan edən ölkə kimi tarixə düşüb, bu çərçivədə 2020-ci ildə silsilə layihələr reallaşdırılıb. İtaliya 44 günlük Vətən müharibəsi dövründə ayrı-ayrı rəsmi orqanlarında, mediada respublikamızın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörməti, dəstəyi açıq bəyan edən az sayda Avropa ölkələrindəndir.

Azərbaycan və İtaliya arasında strateji tərəfdaşlıq iki mühüm siyasi sənəd – 2014 və 2020-ci illərdə imzalanmış bəyannamələrə əsaslanır. Bu sənədlər münasibətlərin hüquqi-siyasi çərçivəsini müəyyən edir və tərəflərin uzunmüddətli əməkdaşlıq iradəsini təsdiqləyir. Xüsusilə 2020-ci il fevralın 20-də imzalanmış "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsi haqqında Birgə Bəyannamə" əməkdaşlığı daha sistemli və konkret istiqamətlər üzrə inkişaf etdirməyə yönəldib. Sənədlərdə əksini tapan prinsiplərin – qarşılıqlı hörmət, suverenliyə dəstək, iqtisadi tərəfdaşlıq və təhlükəsizlik sahəsində əməkdaşlığın bu gün real siyasətdə və praktik layihələrdə öz təsdiqini tapması münasibətlərin formal deyil, real məzmun daşıdığını göstərir. Siyasi münasibətlərin yüksək səviyyədə olması konkret diplomatik jestlər və qarşılıqlı hörmət nümunələri ilə də müşayiət olunur. Bu baxımdan, İtaliya Baş nazirinin Ermənistana səfər proqramını bitirdikdən dərhal sonra Bakıya gəlməsi respublikamızın regional çəkisinə və ikitərəfli münasibətlərə verilən önəmin göstəricisi kimi qiymətləndirilir. Bu həm də Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolunun növbəti təsdiqidir. Mayın 5-də Prezident İlham Əliyev İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə mətbuata bəyanatında da ilk olaraq məhz bu məqama toxundu, səfəri ölkəmizə olan hörmətin və xoş münasibətin bariz təzahürü kimi dəyərləndirdi. Sitat: ***"Bizim ölkələrimiz strateji tərəfdaşdırlar, 2014-cü və 2020-ci illərdə strateji tərəfdaşlığa dair iki bəyannamə imzalanmışdır. Bizim münasibətlərimizin əsasını təşkil edən bu iki sənəd və sənədlərdə təsbit edilmiş məsələlər bu gün həyatda öz əksini tapır. Sizin bu gün Azərbaycanda olmağınız bir daha Azərbaycan-İtaliya əlaqələrinin nə qədər dərinməzmunlu olmasından xəbər verir. Hər kəs bilir ki, Siz bu gün Ermənistanda idiniz. Ermənistanda öz proqramınızı bitirib Azərbaycana gəlmək bizim üçün xüsusi məna daşıyır, çox böyük rəmzi məna daşıyır, eyni zamanda Azərbaycana göstərilən hörmətin və xoş münasibətin bariz təzahürüdür".***

### *Əməkdaşlığın iqtisadi sütunları – enerji, ticarət və investisiyalar*

İqtisadi və ticarət sahəsində konkret rəqəmlər Azərbaycan-İtaliya ikitərəfli münasibətlərinin miqyasını aydın şəkildə ortaya qoyur. İtaliya uzun müddətdir, Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır və ötən il, təxminən, 12 milyard ABŞ dolları həcmində ticarət dövriyyəsi bu reallığı bir daha təsdiqləyir. Müqayisə üçün bildirək ki, 2024-cü ildə bu göstərici 11,4 milyard ABŞ dolları təşkil edib. Ümumilikdə, bu artım dinamikası Azərbaycan iqtisadiyyatının Avropa ilə inteqrasiyasında İtaliyanın xüsusi yer tutduğunu göstərir. Enerji əməkdaşlığı isə bu tərəfdaşlığın əsas sütunu olaraq qalır. Azərbaycan İtaliyanın enerji təchizatında mühüm mövqeyə malik olmaqla neft və qaz üzrə ikinci əsas təchizatçı kimi çıxış edir. Azərbaycanın ümumi qaz ixracı strukturunda İtaliya bazarının xüsusi çəkisi isə bu strateji əməkdaşlığın miqyasını və əhəmiyyətini aydın şəkildə nümayiş etdirir. Nümunə üçün qeyd etmək olar ki, ötən il ixrac olunan 25 milyard kubmetr qazın 9,5 milyard kubmetri məhz İtaliyaya yönəldilib. Bu, İtaliyanın Azərbaycan üçün əsas enerji bazarı olduğunu təsdiqləyir. Enerji sahəsində əməkdaşlığın texniki əsasını isə Cənub Qaz Dəhlizi və onun əsas komponentlərindən biri olan Trans-Adriatik Boru Kəməri (TAP) təşkil edir. Hazırda tərəflər bu kəmərin ötürücülük qabiliyyətinin artırılması üzərində müzakirələr aparır ki, bu da gələcəkdə enerji əməkdaşlığının daha da genişlənəcəyini göstərir.

Ölkələr arasında yeni və perspektivli istiqamətlərdən biri kimi hərbi-texniki əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Baş nazirin səfəri çərçivəsində keçirilən yüksək səviyyəli görüşlərdə birgə layihələrin həyata keçirilməsi, istehsal proseslərinin lokallaşdırılması və İtaliya texnologiyalarının Azərbaycan maliyyə resursları ilə sintezi məsələləri geniş müzakirə olunub. Bu yanaşma tərəflər arasında əməkdaşlığın daha innovativ və praktiki mərhələyə keçəcəyini göstərir. Beləliklə, İtaliya texnologiyalarının Azərbaycan maliyyə imkanları ilə birləşdirilməsi modeli strateji tərəfdaşlığın keyfiyyətcə yeni mərhələyə yüksələcəyini və qarşılıqlı faydaya əsaslanan əməkdaşlığın dərinləşəcəyini təsdiqləyir.

Azərbaycanla İtaliya arasında investisiya əməkdaşlığı da mühüm faktlara əsaslanır. Azərbaycan Dövlət Neft Fondunun son bir neçə ildə İtaliya iqtisadiyyatına, təxminən, 3 milyard ABŞ dolları həcmində sərmayə yatırması münasibətlərin qarşılıqlı xarakter daşıdığını göstərir. Bu artıq yalnız ixrac-idxal münasibətləri deyil, həm də kapital və maliyyə inteqrasiyası səviyyəsində əməkdaşlıq deməkdir. İtaliya şirkətlərinin Azərbaycandakı fəaliyyəti də xüsusi vurğulanmalıdır. Hazırda 130-a yaxın İtaliya şirkəti ölkəmizdə fəaliyyət göstərir ki, bu da İtaliya iş adamlarının Azərbaycan bazarına olan inamını əks etdirir. Xüsusilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda İtaliya şirkətlərinin 23 layihədə iştirakı onların bu prosesdə aparıcı mövqedə dayandığını göstərir. Bu həm iqtisadi əməkdaşlıq, həm də post-müharibə dövrünün bərpa prosesində beynəlxalq tərəfdaşlığın real nümunəsidir.

Humanitar və təhsil sahəsində əməkdaşlıq isə Azərbaycan-İtaliya münasibətlərinin uzunmüddətli perspektivini təmin edən əsas amillərdəndir. Ötən il Bakı şəhərində fəaliyyətə başlayan İtaliya-Azərbaycan Universiteti bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Artıq yüzlərlə tələbənin burada təhsil alması gələcəkdə iki ölkə arasında peşəkar və mədəni körpü rolunu oynayacaq yeni nəsil mütəxəssislərin formalaşmasına xidmət edir. Prezident İlham Əliyev İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə mətbuata bəyanatında da təhsil sahəsində əməkdaşlığı diqqətə çəkdi, İtaliya-Azərbaycan Universitetində təhsil alan tələbələrin gələcəkdə hər iki ölkə arasında təbii elçi rolunu oynayacaqlarını vurğuladı: ***"Keçən il Bakıda böyük təntənə ilə İtaliya-Azərbaycan Universiteti açılmışdır. Azərbaycanda təhsilin inkişafına bu universitetin çox böyük təsiri və töhfəsi olacaq. Bizə verilən məlumata görə, artıq 500-dən çox tələbə orada təhsil alır və gələcəkdə onlar həm peşəkar mütəxəssislər, həm də ki, Azərbaycanın İtaliyada və İtaliyanın Azərbaycanda təbii elçiləri olacaqlar. Beləliklə, bizim dostluğumuz bundan sonra inamla davam etdiriləcəkdir".***



İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin səfəri çərçivəsində müzakirə olunan məsələlər göstərir ki, Azərbaycan-İtaliya münasibətləri ikitərəfli əlaqələr üzərində inkişaf edərək çoxölçülü strateji tərəfdaşlıq modelinə çevrilib. Siyasi dialoq, enerji əməkdaşlığı, yüksək ticarət dövriyyəsi, qarşılıqlı investisiyalar, sənaye layihələri, hərbi-texniki əməkdaşlıq və təhsil sahəsində inteqrasiya bu modelin əsas sütunlarını təşkil edir. Bütün bu faktorlar münasibətlərin təkcə bu gün üçün deyil, gələcək onilliklər baxımından da möhkəm və dayanıqlı əsaslara söykəndiyini göstərir.

**✍ Nail ƏSGƏROV**

# "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısı:

## Azərbaycanın strateji baxışı və sülhə sadiqliyinin ifadəsi



*Azərbaycan "Avropa Siyasi Birliyi" ilə münasibətlərin inkişafına xüsusi önəm verir, bu platformaya praqmatik yanaşır. Rəsmi Bakı üçün əsas məqsəd Avropa ölkələri ilə siyasi dialoqu genişləndirmək, enerji, nəqliyyat və təhlükəsizlik sahələrində əməkdaşlığı gücləndirməkdir. Bu baxımdan, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu xüsusilə önəmlidir və haqlı olaraq Aİ ölkəmizi etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır. Xəzər qazının Avropaya nəqlini nəzərdə tutan Cənub Qaz Dəhlizi və Orta Dəhliz kimi qitələri birləşdirən, əməkdaşlıq körpüsü yaradan qlobal layihələr ölkəni Avropa üçün strateji tərəfdaşa çevirir. Digər tərəfdən, Azərbaycan "Avropa Siyasi Birliyi"platformasını regiondakı mövqeyini gücləndirmək və postmünaqişə dövründə formalaşan reallıqları təqdim etmək üçün dəyərləndirir. Bu baxımdan, Ermənistanın paytaxtı İrəvan şəhərində keçirilən "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısı regionda formalaşmaqda olan yeni siyasi reallıqların müzakirəsi baxımından diqqət çəkir. Prezident İlham Əliyevin tədbirə videobağlantı formatında qoşularaq etdiyi çıxış isə həm regional sülh prosesinə, həm də Avropa institutları ilə münasibətlərə dair mühüm mesajlarla yadda qaldı.*

### Azərbaycan-Ermənistan münasibətlərində sülhün iqtisadi və siyasi əsasları

Prezident İlham Əliyevin Zirvə toplantısında videoformatda çıxışında önə çıxan əsas xətt Azərbaycan və Ermənistan arasında postmünaqişə dövründə yaranmış yeni mərhələnin – sülhə keçid prosesinin artıq real nəticələr verməyə başlaması təşkil edir. Dövlət başçısının vurğuladığı kimi, cəmi doqquz ay ərzində tərəflər sülh şəraitində birgə yaşamağa doğru addımlar atıb. Vaşinqtonda imzalanmış birgə bəyanat və sülh sazişi mətninin paraflanması bu istiqamətdə siyasi iradənin mövcudluğunu təsdiqləyir. Prosesdə Donald Trampın iştirakı isə münasibətlərin nizama salınmasında beynəlxalq faktorun rolunu və marağını göstərir.

Ötən müddətdə Azərbaycanın birtərəfli qaydada Ermənistan üçün tranzit məhdudiyyətlərini aradan qaldırması və enerji məhsullarının ixracına başlaması isə sülhün praktik müstəviyə keçidini nümayiş etdirir. Bu addımlar iqtisadi inteqrasiyanın ilkin elementləri kimi çıxış edir və regionda qarşılıqlı əməkdaşlığın inkişafına zəmin yaradır. Xüsusilə nəqliyyat-kommunikasiya xətlərinin açılması perspektivi, o cümlədən "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu"nun formalaşması Cənubi Qafqazın geoiqtisadi əhəmiyyətini daha da artırır. Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında çıxışında da bütün bu məsələlərə toxundu, indiyə qədər Ermənistana Azərbaycan ərazisi vasitəsilə 28 min ton yük çatdırıldığını vurğuladı. Sitat: ***"Sülhün əldə olunması faktı əsasında Azərbaycan 1990-cı illərin əvvəlindən Ermənistana tətbiq edilən bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırdı. İndiyə qədər Ermənistana Azərbaycan ərazisi vasitəsilə 28 min ton yük çatdırılıb. Azərbaycan hətta əlavə addımlar atdı. Biz ilk dəfə olaraq öz neft məhsullarımızı – benzin və dizeli Ermənistana təchiz etməyə başladıq. Beləliklə, ticarət münasibətləri başladı. Bu vaxta qədər 12 min ton neft məhsullarımız Ermənistana ixrac edilib. Sülh sahəsində digər nailiyyət bağlantılardır. "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" Azərbaycanı öz eksklavı Naxçıvanla birləşdirəcək və bununla yanaşı, o, Orta Dəhlizin bir hissəsinə çevriləcək. Həm Ermənistan, həm Azərbaycan sülhün əyani nəticələrini artıq görürlər".***

### Avropa təsisatlarının ikili standartları – Azərbaycanın prinsipal mövqeyi və siyasi mesajları

Prezidentin çıxışında yer alan mühüm məqamlardan biri də Avropa institutlarının ölkəmizə münasibətdə fərqli yanaşmaların mövcudluğunu önə çıxarması və mühüm siyasi mesajlar ünvanlaması oldu. Bu kontekstdə qeyd etmək olar ki, Avropa Komissiyası Azərbaycanla əməkdaşlığa maraq göstərərək sülh prosesinə dəstək mövqeyi nümayiş etdirir. Lakin təəssüf ki, Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi qurumların yanaşması bunun əksini ortaya qoyur. Xüsusilə də 2023-cü ilin sentyabrında Azərbaycanın lokal xarakterli antiterror tədbirləri ilə ərazi bütövlüyünü tam bərpa etməsindən sonra AŞPA-dakı nümayəndə heyətimizə tətbiq edilən sanksiyalar və qəbul olunan qətnamələr ikili standartların təzahürü və bu qurumun reallığı qəbul etməməsi yönündə ortaya qoyduğu cılız yanaşmadır.

Ölkəmizə qarşı qərəzli mövqe sərgiləyən digər beynəlxalq təsisat isə məhz Avropa Parlamentidir. Təəssüf ki, 30 illik münaqişə dönəmində Azərbaycanın haqq səsini qulaq ardına vuran bu qurum indi də sülh prosesinə xələl gətirməyə, bölgədə gərginlik yaratmağa çalışır. İkinci Qarabağ müharibəsi bitdikdən cəmi altı ay sonra – 2021-ci ilin mayından 2026-cı il aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Son beş il ərzində 14 qətnamənin qəbulu özlüyündə bu təsisatın Azərbaycana münasibətdə qərəzli və qeyri-obyektiv yanaşma sərgilədiyini göstərir. Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır. Absurd və ikrah doğuran səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarının ədalət mühakiməsinə cəlbinə nail olub. Bu baxımdan, Milli Məclisin Avropa Parlamentinin Azərbaycan əleyhinə qəbul etdiyi 30 aprel tarixli qətnamə ilə bağlı verdiyi qərar və Avropa İttifaqının Azərbaycandakı səfirinin Xarici İşlər Nazirliyinə çağırılaraq etiraz notasının təqdim edilməsi rəsmi Bakının məsələyə prinsipial və qətiyyətli yanaşmasının göstəricisidir. XİN-in açıqlamasında da vurğulandığı kimi, sözügedən qətnamədəki müddəalar reallıqları təhrif edir, obyektivlik prinsiplərinə, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət öhdəliklərinə ziddir. Avropa Parlamentinin bu cür yanaşma sərgiləməsi regionda normallaşma prosesinə, eləcə də Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin perspektivlərinə mənfi təsir göstərir. Bütün bu qeyri-konstruktiv mövqeyin, ikili standartların məntiqi nəticəsi kimi, Azərbaycan Parlamenti mayın 1-də Avropa Parlamenti ilə bütün sahələrdə əməkdaşlığı dayandırmaq, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin işində iştirakına son qoymaq və Avronest Parlament Assambleyasında üzvlüyün dayandırılmasına aid prosedurlara başlamaqla bağlı rəsmi qərar qəbul edib. Milli Məclisin qərarı ölkəmizin mövqeyinin qanunverici orqan səviyyəsində də rəsmi şəkildə dəstəkləndiyini göstərir. Bütün bu məqamlar Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı vasitəsilə etdiyi çıxışda yer aldı. Dövlət başçısı bu platforma vasitəsilə Azərbaycanın mövqeyini və iradlarını bir daha Avropa siyasi dairələrinin diqqətinə çatdırdı.

### "Avropa Siyasi Birliyi" 2028 – regional sabitliyə doğru yeni imkanlar

Prezident İlham Əliyevin çıxışının digər mühüm məqamı isə gələcək perspektivlərlə bağlı idi. Dövlətimizin başçısı 2028-ci ildə "Avropa Siyasi Birliyi" Zirvə görüşünün Azərbaycanda keçiriləcəyini elan etməklə ölkənin beynəlxalq platformalarda daha fəal və təşəbbüskar rol oynamaq niyyətini bir daha nümayiş etdirdi. Bu qərar Azərbaycanın təkcə regional deyil, həm də daha geniş coğrafiyada siyasi dialoqu təşviq edən mühüm aktora çevrildiyini göstərir. Ermənistanın bu təşəbbüsü dəstəkləməsi isə iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində mühüm siyasi siqnal kimi dəyərləndirilə bilər. Bu yanaşma tərəflər arasında qarşılıqlı etimadın tədricən formalaşdığını və əməkdaşlıq üçün yeni imkanların yarandığını göstərir. Eyni zamanda bu addım Cənubi Qafqazda uzunmüddətli sabitlik və təhlükəsizliyin təmin olunmasına yönəlmiş diplomatik səylərin davamlılığını da nümayiş etdirir.

Ümumilikdə, İrəvanda keçirilən "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısı Azərbaycanın sülh gündəliyinə sadiqliyini, eyni zamanda beynəlxalq tərəfdaşlarla münasibətlərdə praqmatik və prinsipial mövqe tutduğunu göstərdi. Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər Azərbaycanın postmünaqişə dövründə regional sabitliyin möhkəmlənməsinə yönəlmiş siyasi iradəsini və diplomatik fəallığını bir daha ortaya qoydu. Mövcud dinamika göstərir ki, regionda dayanıqlı sülhün formalaşması təkcə siyasi razılaşmalarla məhdudlaşmır. Bunun üçün həm də iqtisadi inteqrasiyanın genişlənməsi, nəqliyyat-kommunikasiya xətlərinin açılması və qarşılıqlı etimad mühitinin möhkəmlənməsi vacib rol oynayır. Xüsusilə yeni əməkdaşlıq formatları və Orta Dəhliz, Zəngəzur dəhlizi kimi regional, qlobal layihələr Cənubi Qafqazda uzunmüddətli sabitlik üçün real zəmin yarada bilər.

**Nail ƏSGƏROV**

# Azərbaycan, Türkiyə və Gürcüstandan olan din xadimləri Naxçıvana səfər edib











Mayın 4-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Türkiyə və Gürcüstandan gələn, eləcə də ölkəmizdə fəaliyyət göstərən din xadimləri Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucaldılmış abidəsini ziyarət ediblər. Abidə önünə gül dəstələri düzülüb, Ulu Öndərin xatirəsi ehtiramla yad edilib.

Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub. Qonaqlar Ümummilli Liderin həyat və fəaliyyətini, eləcə də onun dövlət-din siyasətindəki misilsiz xidmətlərini əks etdirən fotoşəkillər və eksponatlarla tanış olublar.

# Naxçıvanda “Zəngəzur yolu: tarixin izi ilə” mövzusunda konfrans keçirilib










Mayın 4-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə Naxçıvanda “Zəngəzur yolu: tarixin izi ilə” mövzusunda konfrans keçirilib.

Konfransda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov iştirak ediblər.

Türkiyənin Qars və İğdır vilayətlərindən, Gürcüstanda azərbaycanlıların yaşadığı müxtəlif bölgələrdən, eləcə də ölkəmizdə fəaliyyət göstərən din xadimlərindən ibarət nümayəndə heyətinin qatıldığı tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra Zəfər tariximizə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən Ceyhun Cəlilov bildirib ki, Azərbaycan tarixən müxtəlif dinlərin, mədəniyyətlərin və etnik qrupların dinc, qarşılıqlı hörmət və əməkdaşlıq şəraitində yaşadığı məkan olub. Bu ənənə əsrlərboyu formalaşaraq dövlət siyasəti səviyyəsində qorunub və inkişaf etdirilib. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə dini-mənəvi dəyərlərə münasibət yeni keyfiyyət mərhələsinə yüksəlib. Bu gün həmin siyasi kurs Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və daha da zənginləşdirilir.

Ceyhun Cəlilov vurğulayıb ki, müasir dövrdə Azərbaycan yalnız tolerantlıq mühiti ilə seçilən ölkə deyil, eyni zamanda bu modeli beynəlxalq səviyyədə təşviq edən mərkəzə çevrilib. Multikulturalizm dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi qəbul olunub, bu sahədə mühüm təşəbbüslər irəli sürülüb. Ölkəmizdə keçirilən beynəlxalq forumlar, dinlərarası dialoq platformaları və humanitar tədbirlər Azərbaycanın bu istiqamətdə qlobal rolunu daha da möhkəmləndirib. Konfrans çərçivəsində aparılacaq müzakirələrin Zəngəzur dəhlizinin tarixi, mədəni və strateji əhəmiyyətinin daha dərindən öyrənilməsinə, mənəvi dəyərlərin qorunması istiqamətində yeni təşəbbüslərin irəli sürülməsinə, eləcə də dini həmrəyliyin möhkəmləndirilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edən səlahiyyətli nümayəndə tədbirin işinə uğurlar arzulayıb.

Daha sonra çıxış edən Dövlət Komitəsinin sədri Ramin Məmmədov Zəngəzur dəhlizini ayrılmış bağların bərpasını, keçmişlə gələcəyin qovuşmasını ifadə edən unikal xəritə kimi dəyərləndirib. O bildirib ki, bu xəritədə tarixi yaddaşımızın bir hissəsi və gələcəyə sonsuz ümidlərimizin ifadəsi əks olunur.

Ramin Məmmədov qeyd edib ki, qloballaşma və sürətli informasiya axını fonunda dini dəyərlərin düzgün anlaşılması, onların mahiyyətinin qorunması getdikcə daha da aktuallaşır.

Müxtəlif ideoloji təsirlərin və dəyərlər sistemlərinin toqquşduğu bir şəraitdə mənəvi kimliyin qorunması ideoloji təhlükəsizlik, mənəvi dayanıqlılıq və milli özünüdərk məsələsinə çevrilib.

Bildirilib ki, ortaq və ümummilli dəyərlər ətrafında birləşmək cəmiyyətləri parçalanmadan qoruyan, onları yad və zərərli təsirlər qarşısında daha dayanıqlı edən əsas amillərdəndir. Türkiyə və Gürcüstandan olan din xadimlərinin tədbirdə iştirakı da mənəvi dəyərlərin qorunmasına və qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edən əməkdaşlıq niyyətinin göstəricisi kimi qiymətləndirilib.

Ramin Məmmədov vurğulayıb ki, Zəngəzur yolu ideoloji və mənəvi inteqrasiyanın mühüm aləti kimi dəyərləndirilməlidir. Bu yol xalqlar arasında ünsiyyəti intensivləşdirəcək, ortaq dəyərlərin daha geniş coğrafiyada möhkəmlənməsinə, milli-dini kimliklərin sağlam əsaslar üzərində qorunmasına imkan yaradacaq.

Qeyd olunub ki, “Zəngəzur yolu” yalnız bir layihə deyil – yaddaşımızın davamı, kimliyimizin ifadəsi və region tarixində yeni mərhələnin başlanğıcıdır. Yeni reallıqlar və imkanlar fonunda qarşıda duran əsas vəzifənin mövcud dəyərləri qorumaqla yanaşı, onları inkişaf etdirmək olduğu bildirilib.

Din xadimlərinin missiyasının zərərli ideoloji təsirlərə qarşı maarifləndirici mövqenin gücləndirilməsi, sağlam düşüncə tərzinin formalaşdırılması və milli həmrəyliyin möhkəmləndirilməsinə töhfə verməkdən ibarət olduğu diqqətə çatdırılıb.

Sonda konfrans iştirakçıları birgə xatirə fotosu çəkdiriblər.

Tədbir “Ortaq dəyərlərimiz və dini həmrəylik: keçmişdən bu günə” və “Mənəvi dəyərlərimizin qorunmasında yeni çağırışlar” mövzularında müzakirələrlə davam edib.

# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Naxçıvan Muxtar Respublikasına səfər edib



Mayın 6-da Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırov Naxçıvan Muxtar Respublikasına səfər edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət ediblər. Abidə önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.



# Koreya Respublikasının səfiri Kımqu Kanq Naxçıvana səfər edib



Mayın 7-də Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kımqu Kanq muxtar respublikaya səfəri çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov ilə görüşüb.

Görüşdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanla Koreya Respublikası arasında dostluq və etimada əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb, ikitərəfli əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti qeyd olunub.





Müzakirələr zamanı Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyi çərçivəsində əldə olunan razılaşmalardan məmnunluq ifadə edilib.

Naxçıvan Muxtar Respublikasının Orta Dəhliz üzrə kommunikasiyaların qurulmasında mühüm strateji bölgə kimi rolu diqqətə çatdırılıb. Regionun iqtisadi potensialı, bərpa olunan enerji imkanları, sahibkarlara tətbiq edilən güzəşt və imtiyazlar, eləcə də gələcəkdə azad iqtisadi zonaya çevrilməsi istiqamətində görülən işlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə xarici investorlar üçün regionun əhəmiyyəti, investisiya qoyuluşu üçün əlverişli sahələrdən biri kimi kənd təsərrüfatının yüksək potensiala malik olduğu bildirilib. Kənd təsərrüfatının inkişafı istiqamətində dövlət siyasətinin tərkib hissəsi kimi mövcud güzəştlərin əhəmiyyəti vurğulanıb.

Tərəflər Naxçıvan ilə Koreyanın aparıcı ali təhsil müəssisələri arasında əməkdaşlıq perspektivlərini də müzakirə ediblər. Diqqətə çatdırılıb ki, Naxçıvan Dövlət Universitetində iki minə yaxın xarici tələbə təhsil alır. Onların sırasında Koreya Respublikasından olan tələbələr də var. Bildirilib ki, universitetdə Koreya Mərkəzinin uğurla fəaliyyət göstərməsi qarşılıqlı əlaqələrin inkişafına mühüm töhfə verir.

Görüşdə Azərbaycan və Koreya xalqlarının zəngin mədəni irsə malik olduqları vurğulanıb, hər iki ölkənin mədəniyyətinin qarşılıqlı tanıdılması, təbliği və bu sahədə əməkdaşlığın genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

Səfir Kımqu Kanq bildirib ki, səfərin əsas məqsədi Naxçıvanın sosial-iqtisadi, tarixi-mədəni mühiti ilə yaxından tanış olmaq, qarşılıqlı fikir mübadiləsi aparmaq və gələcək əməkdaşlıq imkanlarını dəyərləndirməkdir.

# Ali Məclisin növbəti plenar iclası keçirilib



Mayın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib.

Ali Məclis sədrinin birinci müavini iclasın gündəliyinə 3 məsələnin müzakirəsinin daxil edildiyini bildirib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ – “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin üçüncü oxunuşda müzakirəsi zamanı Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev qanun layihəsi barədə məlumat verib.

Müzakirə olunan məsələyə deputatlardan Asəf Orucov və Xumar Məmmədova fikirlərini bildirdikdən sonra qanun səsverməyə çıxarılaraq qəbul edilib.

Bəxtiyar Məmmədov qeyd edib ki, növbəti məsələ “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında”



Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin üçüncü oxunuşda müzakirəsidir.

Hüquq siyasəti komitəsinin sədri qanun layihəsi barədə məlumat verib.

Müzakirə olunan məsələ ilə əlaqədar deputat Rauf Cəfərov çıxış etdikdən sonra qanun səsə qoyularaq qəbul olunub.

Gündəlikdə duran üçüncü məsələ – “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin birinci oxunuşda müzakirəsi olub. Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, qanun layihəsi “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq hazırlanıb və Hüquq siyasəti komitəsinin iclasında müzakirə edilib.

Komitə sədri Əjdər Əliyev layihə barədə məlumat verib, komitənin rəyini diqqətə çatdırıb.

Məsələ ilə bağlı deputat Rafiq Novruzov çıxış edərək münasibət bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Bununla da Ali Məclisin iclası başa çatıb.

# Ali Məclisin Hüquq siyasəti komitəsinin iclası keçirilib



Mayın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinə daxil edilən üçüncü oxunuşda olan “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikasının qanun layihələri barədə məlumat verdikdən sonra qanun layihələri Ali Məclisin plenar iclasının müzakirəsinə təqdim olunub.

İclasın gündəliyində duran sonuncu məsələ – birinci oxunuşda olan “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin müzakirəsi zamanı komitə sədri bildirib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən qanunvericilik aktlarının “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması tapşırılıb. Təqdim olunan layihə də məhz bu tələblərə uyğunlaşdırma məqsədi daşıyır.

Qanun layihəsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Rahib Kərimov məlumat verdikdən sonra komitənin rəyi oxunub, qanun layihəsi birinci oxunuşda Ali Məclisin plenar iclasının müzakirəsinə təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda sertifikatlaşdırma prosesinin keçirildiyi İmtahan Mərkəzinə infotur təşkil olunub

Mayın 2-dən Naxçıvanda təhsilverənlərin sertifikatlaşdırma prosesinin ikinci dövriyyəsi üzrə test imtahanlarına başlanılıb.

Mayın 3-də prosesin təşkil olunduğu Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə yerləşən İmtahan Mərkəzinə infotur təşkil olunub. İnfoturda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin nümayəndələri, dövlət və ictimaiyyət, qeyri-hökumət, eyni zamanda mətbuat nümayəndələri mərkəzdə imtahan prosesi ilə yaxından tanış olublar.

İnfoturda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov iştirakçılara məlumat verərək bildirib ki, sertifikatlaşdırma prosesinin və elektron qaydada keçirilən imtahanların Naxçıvanda təşkili üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə 3 yeni İmtahan Mərkəzi yaradılıb. Yeni imtahan mərkəzləri Naxçıvan şəhər 10 və 11 nömrəli tam orta məktəblərdə, həmçinin Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzində fəaliyyət göstərir. 2024-cü ildə yaradılan 302 yerlik 4 mərkəzdə ümumilikdə, eyni anda 720 təhsilverənin imtahan verməsi mümkün olacaq.



Qeyd olunub ki, bütün mərkəzlər zəruri maddi-texniki baza ilə təmin olunub. Belə ki, yeni mərkəzlərdə imtahanların keyfiyyətli təşkili üçün 420 yeni kompüter verilib. Eyni zamanda daimi elektrik təchizatının təmin olunması məqsədilə 3 mərkəzin hər birində generator quraşdırılıb. İmtahanların şəffaf və obyektiv keçirilməsi üçün mərkəzlərdə müasir tələblərə cavab verən elektron daşıyıcılar, səs və görüntüləri qeyd edən veb-kameralar quraşdırılıb. Bildirilib ki, prosesdə, ümumilikdə, 2772 təhsilverənin iştirakı nəzərdə tutulub.

Mərkəzdə müəllimlərin sertifikatlaşdırma prosesi ilə yanaşı, müəllimlərin və məktəb direktorlarının, məktəbəqədər təhsil müəssisələrinin metodist və tərbiyəçi müəllimlərinin işə qəbulu təşkil olunub. Həmçinin mərkəzin imkanlarından Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi də istifadə edir.

Qeyd edək ki, infoturun təşkilində məqsəd prosesdə iştirak edəcək təhsilverənlərə yaradılan şərait və prosesin şəffaf təşkili üçün həyata keçirilən tədbirlərlə bağlı ictimaiyyəti və medianı məlumatlandırmaqdır.

# Bacarıqların formalaşdırılmasına üstünlük verən sistem: subbakalavr təhsili

Azərbaycanda orta ixtisas təhsili pilləsini uğurla başa vuran minlərlə gənc üçün subbakalavr statusu, sadəcə, bir diplom deyil, həm də ali təhsilə gedən yolda mühüm bir keçid fürsətidir. Son illərdə edilən dəyişikliklər bu statusa sahib olan şəxslərə imtahansız bakalavr pilləsinə qəbul olmaq imkanı versə də, prosesin incəlikləri və seçim meyarları hələ də bir çox suallar doğurur.





Mövzu ilə bağlı Dövlət İmtahan Mərkəzinin Naxçıvan regional bölməsinin müdiri, Əməkdar müəllim Sabir Məmmədov subbakalavrların qəbul prosesində diq-







qət etməli olduğu məqamları qeyd edərək bildirib: "Subbakalavr – orta ixtisas təhsili müəssisələrini (kollecləri) və ya yüksək texniki peşə təhsili səviyyəsini bitirərək subbakalavr peşə-ixtisas dərəcəsi almış şəxslərdir. Bu təhsil pilləsi həm müstəqil peşə fəaliyyəti üçün zəmin yaradır, həm də ali təhsilə davam etmək üçün real imkan təqdim edir. Subbakalavr peşə-ixtisas dərəcəsi alan və təhsil sənədində bu barədə müvafiq qeyd olan orta ixtisas təhsili müəssisələrinin məzunları ali təhsil müəssisələrinə imtahansız qəbul oluna bilərlər. Qəbul imtahansız olsa da, bu müsabiqəsiz demək deyil. Subbakalavrlar kollecdəki qiymətlərinin ortalaması əsasında bir-biri ilə rəqabət aparırlar. Balı yüksək olan şəxs universitetə daha asan yerləşir. Subbakalavrlar qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə qəbul olmaq üçün əvvəlcə Dövlət İmtahan Mərkəzinin internet saytının *ekabinet.dim.gov.az* səhifəsində şəxsi kabinet yaratmalı, daha sonra şəxsi kabinetin istifadəçi adı və parolundan istifadə edərək DİM-in internet səhifəsinə daxil olub "Subbakalavrların elektron ərizəsi" formasını təsdiq etməlidirlər. Proses zamanı tələb olunan məlumatlar "Tələbə-Məzun" dövlət elektron məlumat sistemindən onlayn əldə olunur. Müsabiqədə iştirak ödənişsizdir. Bitirdikləri ixtisasa müvafiq xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ali təhsil almaq istəyən subbakalavrlar isə ödənişli olan qabiliyyət imtahanında iştirak etməlidirlər. XQTİ-ləri yalnız bu ixtisaslar üzrə qabiliyyət imtahanlarında iştirak edən və müsabiqə şərtlərini ödəyən subbakalavrlar seçə bilərlər. Subbakalavrlar həm ödənişli, həm də dövlət sifarişli (pulsuz) yerlər üçün müraciət etmək hüququna malikdirlər".

Mövzuyla bağlı fikirlərini bölüşən Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov bildirib: "Müasir dövrdə təhsil sistemi əmək bazarının tələblərinə uyğun çevik və praktik biliklərə malik mütəxəssislərin hazırlanmasını əsas prioritet kimi müəyyən etmişdir. Bu baxımdan, orta ixtisas təhsili və onun nəticəsi olan subbakalavr dərəcəsi mühüm əhəmiyyət daşıyır. Subbakalavr təhsili, xüsusilə texniki və tətbiqi ixtisaslar üzrə bu model əmək bazarının ehtiyaclarına uyğun, peşəkar və rəqabətqabiliyyətli kadrların hazırlanmasına xidmət edir. Subbakalavrların ali təhsil müəssisələrinə qəbulu qüvvədə olan normativ sənədlərə uyğun şəkildə həyata keçirilir. Subbakalavr məzunu yalnız təhsil aldığı ixtisasa uyğun və ya ona yaxın istiqamət üzrə ali məktəbə müraciət edə bilər. Bu uyğunluq ali təhsil proqramının məzmununa və əvvəlki təhsil istiqamətinə əsasən müəyyən edilir. Subbakalavrlar qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə qəbul olmaq üçün elektron qaydada müraciət edirlər. Bunun üçün əvvəlcə şəxsi kabinet yaradılır və sistem vasitəsilə "Subbakalavrların elektron ərizəsi" forması təsdiqlənir. Məlumatlar dövlət elektron bazasından avtomatik şəkildə əldə olunur ki, bu da prosesin şəffaf və operativ aparılmasını təmin edir. Naxçıvan Dövlət Texniki Kolleci bu istiqamətdə keyfiyyətli təhsil, güclü praktik baza və müasir yanaşma ilə regionda mühüm rol oynayır. Naxçıvan Dövlət Texniki Kolleci regionun aparıcı orta ixtisas təhsil müəssisələrindən biri olaraq uzun illərdir ki, müxtəlif sahələr üzrə peşəkar kadr hazırlığı həyata keçirir. Kollecdə texniki, iqtisadiyyat və aqrar yönümlü ixtisaslar mövcuddur. Naxçıvan Dövlət Texniki Kollecində həyata keçirilən tədris proqramları müasir standartlara uyğun tərtib olunmuş, istehsalat təcrübəsi və praktik məşğələlər geniş şəkildə təşkil edilmişdir. Bu yanaşma tələbələrin yalnız nəzəri bilik əldə etməsinə deyil, eyni zamanda real iş mühitində bacarıqlarını inkişaf etdirməsinə şərait yaradır. Nəticədə, subbakalavr təhsili gənclər üçün həm peşə sahibi olmaq, həm də gələcəkdə ali təhsilə davam etmək baxımından əlverişli və çevik bir modeldir".

Mövzu ilə bağlı fikirlərini bildirən Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, NDU nəzdində Naxçıvan Musiqi Kollecinin direktoru Məhəbbət Babayeva isə qeyd etdi: "Subbakalavr – orta ixtisas (kollec) təhsilini bitirən məzuna verilən ixtisas dərəcəsidir. Subbakalavrlar ali məktəbə qəbul olaraq bakalavr təhsilini davam etdirə bilərlər. Musiqi kolleclərində təhsil alan tələbələr üçillik tədris müddətində fundamental ifaçılıq vərdişlərinə, musiqi-nəzəri biliklərə və ansambl mədəniyyətinə yiyələnirlər. Bu mərhələdə qazanılan subbakalavr dərəcəsi tələbənin artıq peşəkar mühitə daxil olduğunu təsdiq edir. Lakin musiqi sənətinin elmi-nəzəri və fəlsəfi aspektlərinin dərindən mənimsənilməsi üçün ali təhsil (bakalavriat) mərhələsi zəruridir. Hesab edirəm ki, subbakalavrların ali təhsilə yönəldilməsi ölkənin mədəniyyət siyasətinin prioritet istiqamətlərindən biridir. Kolleci bitirən subbakalavr artıq müəyyən bir alət (və ya ixtisas) üzrə texniki və bədii hazırlıq səviyyəsinə malikdir. Subbakalavrların ali məktəbə gedişi Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən müəyyən edilmiş "ixtisas uyğunluğu cədvəli" əsasında aparılır. Məsələn, İnstrumental ifaçılıq üzrə kollec bitirən məzun, öz sahəsinə uyğun bakalavr proqramlarına imtahansız (müsabiqə yolu ilə) müraciət edə bilər. Elmi-pedaqoji baxımdan bu, tələbənin 3 il ərzində göstərdiyi akademik stabilliyin qiymətləndirilməsidir.

Bu baxımdan, Naxçıvan Dövlət Universiteti nəzdində Naxçıvan Musiqi Kollecini subbakalavr ixtisasları üzrə bitirən tələbələr istər Azərbaycanda, istərsə də xarici ölkələrdə təhsillərini davam etdirə bilərlər. Yüksək göstəricisi olan subbakalavrlar ali təhsil və musiqi müəssisələrinə (məsələn, Naxçıvan Dövlət Universiteti, Bakı Musiqi Akademiyasına, Azərbaycan Milli Konservatoriyası) qəbul şansı qazanırlar. Musiqi sənəti sahəsində kollecdən universitetə keçid edənlər üçün ən mühüm mərhələ qabiliyyət imtahanlarıdır. Subbakalavr öz ifaçılıq və ya nəzəri bilik səviyyəsini ali məktəbin professor-müəllim heyəti qarşısında nümayiş etdirir. Bu, orta ixtisas təhsilində qazanılmış texniki bazanın ali təhsilin tələblərinə cavab verib-vermədiyini müəyyən edən əsas filtrdir".

Subbakalavr dərəcəsi, sadəcə, kollec təhsilinin sonu deyil, ali təhsilə və peşəkar gələcəyə açılan yeni bir başlanğıcdır. Bu imkandan yararlanan hər bir gənc öz bilik və bacarıqlarını universitet auditoriyalarına daşımaqla həm öz taleyini, həm də ölkəmizin elmi potensialını zənginləşdirmiş olur. Unutmayaq ki, təhsildə atılan hər bir doğru addım uğurlu gələcəyin ən böyük zəmanətidir.

**Səmayə RƏSULOVA**

# İdeyaların toplaşdığı məkan: Naxçıvan İnnovasiya Mərkəzi

Ölkəmizdə, eləcə də regionda istedadlı gənclərin ideya və potensiallarını inkişaf etdirmək üçün yeni-yeni layihələr və innovasiya mərkəzləri təsis olunur. 1 oktyabr 2025-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin həyatında bu cür əlamətdar bir gün yaşandı. Regionun gələcəyinə işıq salan, innovasiya və yaradıcılığın mərkəzinə çevrilən Naxçıvan İnnovasiya Mərkəzi rəsmi olaraq qapılarını istedadlara açdı. 767 kvadratmetr ərazini əhatə edən bu müasir kompleks, sadəcə, bir bina deyil, Naxçıvan gəncliyinin arzularını gerçəkləşdirən, ideyalarını inkişaf etdirən güclü bir platformadır.







İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) dəstəyi ilə yaradılan mərkəz Bakı və Sumqayıtdan sonra ölkənin üçüncü regional innovasiya mərkəzi kimi startap ekosisteminin inkişafında yeni mərhələni açıq elan etdi. Mərkəzin əsas qayəsi sadə və aydın səslənir: Naxçıvanın yaradıcı gənclərinə, tələbələrinə və innovativ düşüncə daşıyıcılarına ən yüksək səviyyəli infrastruktur təqdim etmək, onların ideyalarını kağız üzərindən çıxarıb real həyata keçirməyə imkan yaratmaqdır. Bu məkan artıq ilk günlərdən gənclərin marağına səbəb olub və regionda texnoloji inkişafın yeni mərkəzinə çevrilmək potensialını nümayiş etdirir.

Mərkəzdəki 88 nəfərlik akt zalı burada konfranslar, seminarlar, panel müzakirələri, inkubasiya proqramları və böyük tədbirlər keçirməyə imkan verir. Rahat və müasir avadanlıqlarla təchiz olunmuş iki görüş otağı isə komanda iclasları, layihə təqdimatları, startap ideyalarının müzakirəsi və beynəlxalq videokonfranslar üçün ideal şərait yaradır. İnnovasiya Mərkəzinin ən maraqlı hissəsi isə, şübhəsiz ki, 6 laboratoriya otağı ilə təchiz olunmasıdır. Bu otaqlar gənc ixtiraçıların əsl yaradıcılıq emalatxanasına çevrilib.



Burada kamera izləmə funksiyalı 3D printerlər, yüksək dəqiqlikli CNC lazer cihazı, termal kamera, 360 dərəcə mikroskop, Labconco Biosafe cihazı, lehim stansiyaları, Arduino (Uno, Nano, Mega), Raspberry Pi, ESP modulları, osiloskop, multimetr və zəngin elektron komponentlər gəncləri gözləyir. 4 ədəd Osoyoo robot dəsti və mexaniki alətlər isə robototexnika və mexanika həvəskarlarına geniş imkanlar açır. Bu laboratoriyalarda gənclər, sadəcə, öyrənməyəcək, həqiqi prototiplər yaradacaq, sınaqlar və öz ixtiralarını həyata keçirəcəklər.

Mərkəzin digər mühüm məkanı isə iki kompüter sinfinin olmasıdır. Bunlardan birincisi "iMac Studio"dur ki, 11 ədəd güclü iMac kompüteri ilə təchiz olunub. Burada gənclər mobil tətbiqlər hazırlayır, qrafik dizayn, videomontaj, Adobe proqramları və Figma ilə professional səviyyədə işləyir. "HP Studio" isə proqramlaşdırma, süni intellekt, maşın öyrənməsi, API inteqrasiyası, verilənlər bazası, IoT layihələri, PCB dizaynı və UI/UX istiqamətlərində dərin bilik və bacarıq qazanmaq istəyənlər üçün nəzərdə tutulub. Mərkəzin texnoloji gücünü artıran ən vacib element isə server otağıdır. Burada quraşdırılan 2 ədəd HPE Proliant DL380 Gen10 Plus server və müasir şəbəkə avadanlığı süni intellekt modellərinin öyrədilməsi, böyükhəcmli məlumatların emalı və hakatonlar zamanı eyni vaxtda çoxsaylı istifadəçinin işləməsinə imkan yaradır.

Naxçıvan İnnovasiya Mərkəzi bu gün yalnız avadanlıqların toplaşdığı məkan deyil. Bu, gələcəyin memarlarının, innovativ sahibkarların və yaradıcı beyinlərin bir araya gəldiyi canlı bir ekosistemdir. Burada doğulan ideyalar sabah Naxçıvanı, Azərbaycanı və bəlkə də, dünyanı dəyişdirəcək. Naxçıvanın gənc nəsli artıq bu fürsətdən istifadə etməyə başlayıb. Onların əllərində olan bu müasir imkanlar yaxın gələcəkdə ölkəmizin innovasiya xəritəsində Naxçıvanı parlaq bir nöqtəyə çevirəcəyinə əminlik yaradır.

**Rafiq TƏHMƏZ**

# Muxtar respublikada çaylarda və su anbarlarında suyun səviyyəsi yüksəlib
## Su bolluğuna baxmayaraq, qənaət zəruridir

Son aylarda muxtar respublikada yağıntıların bol olması nəticəsində çaylarda və su anbarlarında suyun səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib. Bu isə həm içməli su təminatına, həm də kənd təsərrüfatının inkişafına müsbət təsir göstərir. Lakin mövcud su ehtiyatlarının artmasına baxmayaraq, onlardan səmərəli və qənaətlə istifadə olunması vacib olaraq qalır.

Su ehtiyatlarının idarə olunması və kənd təsərrüfatında sudan düzgün istifadə məsələləri barədə həm meliorasiya, həm də aqrar sahə üzrə mütəxəssislərlə həmsöhbət olduq. Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin baş mühəndisi Ayxan Həsənov mövzu ilə bağlı bildirdi ki, muxtar respublikada 2026-cı ilin suvarma mövsümünə hazırlıq tədbirləri plana uyğun şəkildə davam etdirilir. Əkin sahələrinin vaxtında və fasiləsiz su ilə təmin olunması məqsədilə meliorasiya və irriqasiya sistemlərində kompleks işlər görülür, arxlar, kanallar və kollektor-drenaj şəbəkələri lil və çöküntülərdən təmizlənir, hidrotexniki qurğuların texniki vəziyyəti yoxlanılır, zəruri hissələrdə təmir-bərpa işləri aparılır.

Onun sözlərinə görə, bu tədbirlər su itkilərinin minimuma endirilməsinə, suyun mənbədən istifadəçilərə daha səmərəli və fasiləsiz çatdırılmasına imkan verir. Bildirilib ki, bu il yağıntıların ötən illə müqayisədə daha bol olması su ehtiyatlarına müsbət təsir göstərib. Xüsusilə qış və yaz aylarında müşahidə olunan intensiv yağışlar, eləcə də dağlıq ərazilərdə qar örtüyünün zəngin olması çaylarda su sərfinin artmasına və su anbarlarının doluluq səviyyəsinin yüksəlməsinə səbəb olub.

Ayxan Həsənov qeyd etdi ki, hazırda su anbarlarında 239 milyon 870 min kubmetr su ehtiyatı mövcuddur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə əhəmiyyətli artım deməkdir. Bu artım suvarma mövsümünə daha əlverişli başlanğıc şəraiti yaradır, əkin sahələrinin su təminatında fasilələrin azalmasına və suvarmanın daha sabit qrafik üzrə həyata keçirilməsinə imkan verir. Yaz suvarmaları dövründə minlərlə hektar torpaq sahəsinin suvarılması təmin olunub və bu, mövcud su ehtiyatlarından səmərəli istifadənin göstəricisidir. Su ehtiyatlarının artmasına baxmayaraq, sudan qənaətlə istifadə məsələsi daim aktual olaraq qalır. Bu baxımdan, mütərəqqi suvarma sistemlərinin tətbiqi böyük əhəmiyyət daşıyır.

Damcı suvarma üsulu suyun birbaşa bitkinin kök hissəsinə verilməsini təmin edərək itkilərin qarşısını alır, yağış yağdırma üsulu isə suyun sahəyə bərabər paylanmasına imkan yaradır. Bu sistemlər həm su sərfiyyatını azaldır, həm də məhsuldarlığın artmasına şərait yaradır.

Kənd təsərrüfatı sahəsi üzrə mütəxəssis, Kənd Təsərrüfatı Nazirliyinin Torpaqlardan istifadə, meliorasiya-irriqasiya məsələləri, örüş və otlaqlara nəzarət sektorunun baş məsləhətçisi Əli Hüseynovla da həmsöhbət olduq.

O bildirdi ki, Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatında su ehtiyatlarının mövcud vəziyyəti regionun təbii-coğrafi xüsusiyyətləri ilə sıx bağlıdır və strateji əhəmiyyət daşıyır. Muxtar respublikanın quraq və yarımsəhra iqlim qurşağında yerləşməsi su resurslarının məhdud olmasına səbəb olur və onların formalaşması, əsasən, çaylar, yeraltı sular və su anbarları hesabına baş verir. Bu baxımdan, su ehtiyatlarının səmərəli idarə olunması aqrar sahənin davamlı inkişafında həlledici rol oynayır.

Mütəxəssisin sözlərinə görə, regionda əsas su mənbələri Araz çayı və onun qolları, Arpaçay, Naxçıvançay, Gilançay və Əlincəçay kimi çaylar, həmçinin yeraltı sular və su anbarlarıdır. Son illərdə muxtar respublikada su infrastrukturunun modernləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. Yeni su anbarlarının tikilməsi, mövcud suvarma kanallarının yenidən qurulması, nasos stansiyalarının istifadəyə verilməsi və qapalı suvarma şəbəkələrinin genişləndirilməsi su itkilərinin azaldılmasına və suyun daha səmərəli istifadəsinə imkan yaradıb.

Əli Hüseynov qeyd edib ki, 2025-ci ilin payızında və 2026-cı ilin yazında yağan intensiv yağıntılar nəticəsində muxtar respublikada göllərdə və su tutarlarında suyun səviyyəsi əvvəlki illərlə müqayisədə xeyli artıb. Bu isə kənd təsərrüfatı üçün əlverişli şərait yaratsa da, sudan qənaətlə istifadə məsələsini ortaya çıxarır. Qeyd edək ki, respublikada son illərdə 6000 hektardan artıq ərazidə qapalı suvarma şəbəkələrinin yaradılması suyun itkisiz çatdırılmasına imkan verir. Torpağın strukturunun yaxşılaşdırılması, üzvi gübrələrdən istifadə, eləcə də quraqlığa davamlı bitki sortlarının seçilməsi də suya qənaətdə mühüm rol oynayır.

O həmçinin bildirib ki, yaxın gələcəkdə su ehtiyatlarının daha səmərəli idarə olunması məqsədilə yeni layihələrin həyata keçirilməsi planlaşdırılır. Bu layihələr çərçivəsində yeni su anbarlarının tikilməsi, mövcud sistemlərin modernləşdirilməsi, damcı və yağmurlama suvarma texnologiyalarının geniş tətbiqi, eləcə də yeraltı su ehtiyatlarının daha effektiv istifadəsi nəzərdə tutulur.

Maarifləndirmə tədbirlərinə də toxunan mütəxəssis qeyd edib ki, fermerlər üçün mütəmadi təlimlər keçirilir, müasir suvarma üsulları praktik şəkildə izah olunur və dövlət tərəfindən texniki dəstək göstərilir. Eyni zamanda su israfının qarşısını almaq üçün normativ suvarma qaydaları tətbiq edilir, gecə suvarmalarına nəzarət gücləndirilir və texniki itkilərin azaldılması istiqamətində tədbirlər görülür.

✍ Zəhra VƏLİYEVA



*Son dövrlərdə muxtar respublika ərazisində müşahidə olunan intensiv yağıntılar və qeyri-sabit hava şəraiti kənd təsərrüfatı sahəsində həm əlverişli mühit, həm də müəyyən risklər formalaşdırır. Mövzu ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin baş məsləhətçisi Bəhruz Qasımov ilə həmsöhbət olduq.*

# Yaz yağıntıları kənd təsərrüfatına necə təsir edir?





O bildirdi ki, yaz aylarında yağan yağışlar xüsusilə dənli bitkilərin inkişafına müsbət təsir göstərir. Torpaqda rütubət ehtiyatının artması suvarmaya olan tələbatı azaldır, bu isə, əsasən, dəmyə əkin sahələri üçün mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, yağıntılar nəticəsində torpağın üst və alt qatlarında nəm balansının bərpa olunması müşahidə edilir ki, bu da taxıl sahələrində bitkilərin normal inkişafına əlverişli şərait yaradır. Bu cür təbii rütubət təminatı məhsuldarlığın artmasına da birbaşa müsbət təsir göstərir.

Bununla yanaşı, mütəxəssis qeyd edib ki, yağıntıların normadan artıq olması kənd təsərrüfatı üçün arzuolunmaz nəticələr də doğura bilər. Belə ki, həddindən artıq yağışlar torpaqda su basmalarına səbəb olur. Bu isə bitkilərin kök sistemində oksigen çatışmazlığı yaradır. Nəticədə, bitkilərin inkişafı zəifləyir, vegetasiya prosesi ləngiyir, bəzi hallarda isə əkin sahələrində ciddi itkilər qeydə alınır. Bundan əlavə, yüksək rütubət səviyyəsi müxtəlif göbələk mənşəli xəstəliklərin yayılması üçün əlverişli mühit formalaşdırır ki, bu da xüsusilə taxıl sahələrində riskləri artırır.

Nazirliyin əməkdaşı vurğulayıb ki, yağıntıların təsiri meyvə bağlarında daha həssas şəkildə hiss olunur. Xüsusilə çiçəkləmə mərhələsində müşahidə olunan davamlı yağışlar tozlanma prosesinə mənfi təsir edir. Bu isə ərik, alça və badam kimi erkən çiçəkləyən meyvə ağaclarında məhsuldarlığın azalmasına səbəb ola bilər. Qeyd edək ki, rütubətli hava şəraitində ağaclarda göbələk xəstəliklərinin yayılması sürətlənir, meyvə və yarpaqlarda çürümə halları artır. Eyni zamanda torpağın həddindən artıq su ilə doyması kök sisteminin fəaliyyətini zəiflədir və kök çürüməsi riskini yüksəldir.

Mütəxəssis təsərrüfatçılara aqrotexniki tədbirlərin vaxtında və düzgün şəkildə həyata keçirilməsinin vacibliyini xüsusi olaraq diqqətə çatdırıb. Bildirib ki, güclü yağıntılardan sonra torpağın səthinin, təxminən, 10-12 santimetr dərinlikdə yumşaldılması kök sisteminin oksigenlə təmin olunmasına kömək edir və torpaqda hava mübadiləsini yaxşılaşdırır. Bununla yanaşı, hava şəraiti sabitləşdikdən sonra meyvə ağaclarının göbələk xəstəliklərinə qarşı müvafiq preparatlarla müalicə olunması tövsiyə edilir.

Sonda o qeyd edib ki, kimyəvi mübarizə tədbirlərinin düzgün seçilməsi və tətbiqi də mühüm əhəmiyyət kəsb edir. Xüsusilə mis və kükürd tərkibli preparatlardan istifadə olunması göbələk xəstəliklərinə qarşı effektiv nəticə verir və bitkilərin sağlamlığının qorunmasına xidmət edir. Beləliklə, müşahidə olunan yağıntılar kənd təsərrüfatı üçün mühüm imkanlar yaratsa da, düzgün idarə olunmadığı təqdirdə müəyyən risklər də doğura bilər. Bu baxımdan, fermerlərin və təsərrüfat sahiblərinin hava şəraitini diqqətlə izləməsi, mütəxəssis tövsiyələrinə əməl etməsi və aqrotexniki tədbirləri vaxtında həyata keçirməsi xüsusi əhəmiyyət daşıyır.

✍ Əhməd ƏHMƏDOV

# Yazlıq əkin sahələri artıb



Naxçıvan Muxtar Respublikasında yazlıq bitkilərin əkini ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz artaraq 3353,3 hektara çatıb.

4 may tarixinə olan statistik məlumatlara əsasən əkin sahələrinin strukturunda 1210,6 hektar olmaqla dənli və dənli-paxlalılar üstünlük təşkil edir.

Bununla yanaşı, təsərrüfatlarda 863,4 hektarda yemlik bitkilər 585,9 hektarda kartof, 389,7 hektarda dən üçün qarğıdalı, 165,7 hektarda bostan bitkiləri və 123,2 hektarda tərəvəz əkini həyata keçirilib. Cari mövsümdə, həmçinin 14 hektar sahədə tütün, 0,8 hektarda isə sarıçiçək əkilib.

Hazırda muxtar respublikada yazlıq bitkilərin əkini davam edir.

# Naxçıvan şəhərində 40-dan çox işəgötürənin iştirakı ilə əmək yarmarkası keçirilib





Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən Naxçıvan şəhərində əmək yarmarkası təşkil olunub.

Yarmarkada çıxış edən agentliyin İdarə Heyətinin sədri Rasim Piriyev bildirib ki, aktiv məşğulluq tədbirləri çərçivəsində təşkil olunan əmək yarmarkaları işsiz və işaxtaran şəxslərin əmək bazarına çıxışına və onların məşğulluğunun təmin olunmasına mühüm dəstək verir. O qeyd edib ki, əmək yarmarkası dövlət və özəl qurumların nümayəndələrinin ixtisaslı kadrlara olan ehtiyaclarının qısa zamanda ödənilməsi baxımından da faydalıdır.

Yarmarkada 40-dan çox özəl və dövlət müəssisəsindən, ümumilikdə, 200-ə yaxın vakansiya işsiz və işaxtaran vətəndaşlara təqdim olunub. Vakansiyalar üzrə müraciət edən şəxslərin işlə təmin olunması istiqamətində tədbirlər görülməyə başlanıb.

Bundan əlavə, tədbir zamanı işsiz və işaxtaran şəxslər agentlik tərəfindən icra olunan aktiv məşğulluq tədbirləri barədə də məlumat almaq imkanı əldə ediblər.

# Azərbaycanlı döyüşçülər İkinci Dünya müharibəsində əsl qəhrəmanlıq göstəriblər

*Onların xatirəsi daim yaşayacaq*

**Ümummilli Lider Heydər Əliyev İkinci Dünya müharibəsində Azərbaycanın rolunu yüksək qiymətləndirərək deyirdi: "Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və rəşadət nümunələri göstərmişdir". 9 May – faşizm üzərində qələbə qazanmış bütün ölkələr üçün böyük gündür. Bu qələbə bütün dünya üçün əlamətdar hadisə olub. Bu il İkinci Dünya müharibəsində faşist Almaniyası üzərində qazanılan qələbənin 81 illiyi qeyd olunur. Bir neçə il davam edən aramsız, amansız döyüşlərdə Azərbaycan xalqının oğul-qızları həm ön, həm də arxa cəbhədə böyük əzmkarlıq, şücaət və qəhrəmanlıq nümunəsi göstərmişdir.**

Bəli, bəşər tarixində silinməz izlər buraxan bu müharibəyə cəlb olunmuş keçmiş müttəfiq respublikalar içərisində istər ümumi əhaliyə nisbətən əsgər sayına, istərsə də döyüşçülərin təltif olunması faizinə görə Azərbaycan ən öncül sıralarda dayanırdı. Belə ki, 700 minə yaxın soydaşımız, başqa sözlə, respublika əhalisinin hər 5 nəfərindən biri cəbhədə vuruşub, onların 450 mini və ya 65 faizi orden və medallarla təltif edilib, 130 nəfər "Sovet İttifaqı Qəhrəmanı" kimi yüksək ada layiq görülüb. Müharibədə cəsur azərbaycanlılardan ibarət 416-cı "Taqanroq", 402-ci "Azərbaycan", 223-cü "Belqrad" və 77-ci "Simferopol" diviziyaları şərəfli döyüş yolu keçib, soydaşlarımızın, təxminən, yarısı ağır döyüşlərdə qəhrəmancasına həlak olub. Müharibənin taleyində Naxçıvan da böyük rol oynayıb, 402-ci diviziya burada formalaşdırılaraq cəbhəyə yola salınıb. Həmyerlilərimiz 223-cü diviziyanın tərkibində Macarıstanın və keçmiş Yuqoslaviyanın faşistlərdən təmizlənməsində igidlik göstəriblər. Qürurlu haldır ki, 416-cı diviziya Şimali Qafqazdan Berlinədək ağır döyüş yolu keçib, diviziyanın əsgərləri Berlində qələbə bayrağını ilk qaldıranlardan olublar.

Müharibənin başlandığı gün – 1941-ci il iyunun 22-də Naxçıvan Muxtar Respublikasından 6492 nəfər orduya yollanıb. Ümumilikdə, 29 min 500 muxtar respublika sakini 1941-1945-ci illər müharibəsində iştirak edib. Müharibəyə könüllü gedənlərdən yüzə yaxını qadınlar idi. Cəbhəyə yollanan naxçıvanlıların hər ikisindən biri – 16 minə yaxın insan həlak olub. Üç həmyerlimiz – Abbas Quliyev, Nəcəfqulu Rəfiyev və Qəzənfər Əkbərov SSRİ-nin ən yüksək mükafatına – "Sovet İttifaqı Qəhrəmanı" adına, Rəhim Rəhimov "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülüb, 600 nəfər isə müxtəlif orden və medallarla təltif edilib. 102 nəfər "Şöhrət" ordeninin ayrı-ayrı dərəcələri, 105 nəfər birinci və ikincidərəcəli "Böyük Vətən müharibəsi", 315 nəfər "Qırmızı Ulduz", 29 nəfər "Qırmızı Bayraq" ordenləri ilə təltif olunublar. Həmin illərdə azərbaycanlılar arxa cəbhədə də fəallıqları ilə seçiliblər. Onlar ordunun ehtiyacını ödəmək üçün qüvvələri səfərbərliyə alıb, gecəni gündüzə qataraq yorulmaq bilmədən çalışıb, qələbənin qazanılmasına öz töhfələrini verməyə səy göstəriblər. Xüsusi vurğulanmalıdır ki, faşizm üzərində tarixi qələbənin əldə edilməsində Azərbaycan nefti böyük rol oynayıb. Belə ki, həmin illərdə sovet ittifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzininin və yüksəkkeyfiyyətli sürtkü yağlarının 85-90 faizi Azərbaycanın payına düşürdü. Faşizm üzərində qələbənin təmin edilməsində həlledici amil kimi sovet ordusunun tank və təyyarələrinin böyük əksəriyyəti Azərbaycan neftinin hesabına hərəkətə gətirilirdi. Bir sözlə, əgər Bakı nefti olmasaydı, bu müharibədə hərbi əməliyyatları uğurla başa çatdırmaq mümkün olmazdı. Akademik Yusif Məmmədəliyevin 1941-1945-ci illərdə neft kimyası sahəsindəki ixtiraları isə, o dövrdə ümumittifaq respublikaları arasında Azərbaycan elminin inkişaf göstəricisi idi.

Ölkəmizin bütün sənaye müəssisələri, xüsusən maşınqayırma zavodları silah və sursat istehsalı ilə məşğul idi. Müharibə dövründə Azərbaycanda 130 növ silah və sursat istehsal olunaraq cəbhəyə göndərilirdi. Bununla yanaşı, cəbhəyə kömək məqsədilə digər imkanlardan da istifadə olunurdu. Həmin dövrdə təkcə Naxçıvan Muxtar Respublikasından müdafiə fonduna 12 kiloqram qızıl və gümüş, 180 milyon 89 min manat nağd pul, 70 min ton ət və digər ərzaq məhsulları, 160 min dəstdən çox isti paltar, 10 mindən artıq bağlama göndərilib.

Vətən yolunda xidməti olan insanlardan heç vaxt qayğısını əsirgəməyən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev azərbaycanlıların 1941-1945-ci illər müharibəsində göstərdikləri şücaətləri hər zaman yüksək qiymətləndirib. Görkəmli dövlət xadiminin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 May respublikamızda "Qələbə Günü" kimi rəsmiləşdirilib, dövlət bayramları sırasına daxil edilib, müharibə veteranlarının sosial müdafiəsi gücləndirilib. Onların xatirəsinin əbədiləşdirilməsi istiqamətində sistemli və ardıcıl tədbirlər görülüb, imtiyazları və statusları bərpa olunub.

Ulu Öndərin layiqli siyasi varisi Prezident İlham Əliyev də 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir və bu addım hər bir azərbaycanlı tərəfindən rəğbətlə qarşılanır. "Böyük Vətən müharibəsi iştirakçılarının "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilməsi haqqında" 2020-ci il 1 may tarixli Sərəncam da bu təbəqədən olan vətəndaşlara dövlət başçısının verdiyi xüsusi önəmin göstəricisidir. Faşizm üzərində qələbənin 81-ci ildönümü ilə əlaqədar "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-ci il 24 aprel tarixli Sərəncamı həmin şəxslərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlərin davamı, eyni zamanda bu qələbədə payı olan şəxslərə hörmətin ifadəsidir.

### *Possovet məkanında qələbə paradı keçirən ilk ölkə*

Tarixboyu vətənpərvərliyi ilə seçilən azərbaycanlıların şərəfli ömür yolu sonrakı nəsillər üçün bir məktəbdir və bugünkü gəncliyin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır. Gənclərimizdə yüksək vətənpərvərlik ruhunu 2020-ci ilin sentyabr ayının 27-də başlanan İkinci Qarabağ müharibəsində bütün dünya bir daha bariz formada gördü. Xalqımız 44 gün davam edən Vətən müharibəsində "dəmir yumruq" ətrafında birləşərək misilsiz zəfərə imza atdı, əzəli torpaqlarımız işğaldan azad olundu. 2023-cü il sentyabrın 19-20-də 24 saata yaxın müddətdə aparılan lokal xarakterli antiterror tədbirləri ilə müzəffər Ordumuz ərazi bütövlüyümüzü, suverenliyimizi təmin etdi.

İkinci Qarabağ müharibəsində iştirak edən hər bir gənc ata-baba əmanəti sayılan torpaqlarımızın erməni faşistlərinin əsarətindən azad olunmasında qəhrəmanlıq göstərdi, şəhadətə yüksəldi, qazi, qalib kimi evinə qayıtdı, misilsiz qələbə qazandı. Başqa sözlə, xalqımızın nümayəndələrinin 1941-1945-ci illər müharibəsində göstərdiyi qəhrəmanlığı mətin, əzmli gənclərdən ibarət müzəffər Azərbaycan Ordusu 75 il sonra daha möhtəşəm şəkildə təkrar etdi. Bu müharibədə qazanılan zəfər təkcə öz tariximizi yox, həm də regionun və dünyanın tarixini yenidən dəyişdi. Postsovet məkanında 1945-ci ildən sonra keçirilən ilk qələbə paradına da biz imza atdıq.

**Ramiyə ƏKBƏROVA**



# Yaşayan tarix
## O İkinci Dünya müharibəsinin həyatda olan tək naxçıvanlı şahididir



9 May – faşizm üzərində qələbənin 81-ci ildönümü ərəfəsində Culfa rayonunun Yaycı kəndində, kiçik bir həyət evində 103 yaşlı Abdulla baba ilə üz-üzə əyləşmişəm. Onun üz cizgilərində müharibənin dəhşətləri hələ də yaşamaqdadır. Abdulla Səfərov İkinci Dünya müharibəsinin iştirakçısı və muxtar respublikada həyatda olan tək veterandır.

1941-ci ilin qızmar yayında, cəmi 18 yaşı olarkən Abdulla kişi evini, ailəsini və dağların ətəyindəki həyatını arxada qoyaraq doğma Yaycıdan uzaq düşmüşdü. Mozdok istiqamətində müharibəyə başlayan gənc əsgər tezliklə qanlı döyüşlərin burulğanına düşdü. Barıt tüstüsü, Qafqaz dağlarının qarlı keçidləri, saysız-hesabsız şəhər və kəndlərdə gedən amansız döyüşlər... O hər birini görüb keçirdi.

1943-cü ildə ağır yaralanaraq hərbi xəstəxanaya düşdü. Ölümün soyuq nəfəsini boynunda hiss etdiyi o günlərdə belə o, doğma yurdunu düşünürdü. Çünki o bilirdi: əgər alman faşistləri qalib gəlsə, ilk hədəflərindən biri məhz Bakı olacaqdı. Azərbaycanın qara qızılı, bir sözlə, nefti olmadan onlar müharibədə SSRİ-yə nisbətdə gücsüz idi. Bu torpaq onlar üçün, sadəcə, coğrafiya deyil, strateji həyat mənbəyinə çevrilmişdi.

Lakin onlar qalib gələ bilmədilər. Çünki qarşılarında Həzi Aslanov kimi igidlər, Abdulla Səfərov kimi minlərlə azərbaycanlı əsgər dayanmışdı. Uzaq torpaqlarda, doğma evindən minlərlə kilometr aralıda olsa belə onları ayaq üstə saxlayan şey məhz Vətən sevgisi idi. Qarlı səngərlərdə donarkən, güllələr yağış kimi yağan zaman yaddan çıxmayan Vətən eşqi.

Bu gün Abdulla kişi həyətində oturub keçmişə boylananda gözləri dolur. Amma təkcə kədərdən yox. Dövlətin onlara göstərdiyi qayğıya, Prezidentin diqqətinə görə də minnətdardır.

Bu il 9 Mayda onun kimi qəhrəmanların xatirəsini yad edərkən bir daha başa düşürük: faşizm üzərində qələbə təkcə tankların və topların gücü ilə qazanılmayıb. O həm də uzaq kəndlərdən gələn sadə oğlanların Vətənə bağlılığı və mətinliyi ilə qazanılıb.

**Rafiq TƏHMƏZ**

# Naxçıvanda keçirilən sertifikasiyada müəllimlərin uğuru: zəhmət və peşəkarlıq nəticə verdi




Xəbər verdiyimiz kimi, mayın 2-dən Naxçıvan Muxtar Respublikasında dövlət ümumi təhsil müəssisələrində çalışan təhsilverənlərin sertifikatlaşdırma prosesinin ikinci dövriyyəsi üzrə test imtahanlarına start verilib. İmtahanlar Naxçıvan şəhərində 4 və 11 nömrəli tam orta məktəblərdə, eləcə də Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzində təşkil olunub.

Biz də imtahanlarda yüksək nəticə göstərən müəllimlərlə görüşərək həmsöhbət olduq.

Şəkərabad kənd tam orta məktəbinin ingilis dili müəllimi Xatirə Əhmədova sertifikatlaşdırmanın test mərhələsində maksimum nəticə (60 bal) göstərib. O bu uğuru uzunmüddətli zəhmətin, məsuliyyətin və məqsədyönlü hazırlığın nəticəsində görür: "İmtahana hazırlıq dövründə qarşılaşdığım çətinliklərə baxmayaraq, ailəmin dəstəyi, özümə inamım və həmkarlarımın motivasiyası mənə güc verdi". Xatirə müəllimə üçün əldə etdiyi nəticə hələ son deyil, əksinə, yeni uğurların başlanğıcıdır. Gələcəkdə daha böyük nailiyyətlər qazanmaq və cəmiyyət üçün faydalı şagirdlər yetişdirmək əsas məqsədlərindəndir.

20 illik pedaqoji təcrübəsi olan məktəbin digər müəllimi Əfruz Quliyeva isə bildirib ki, imtahan sualları müəllimlərin gündəlik dərs prosesində istifadə etdikləri bilik və bacarıqları ölçməyə yönəlib və bu baxımdan nəticələr müəllimin real peşəkarlıq səviyyəsini əks etdirir. Şagirdlərimin müxtəlif olimpiadalarda uğur qazanması, eləcə də ingilis dili və digər ingilisdilli ixtisaslar üzrə təhsillərini davam etdirməsi mənim üçün xüsusi qürur mənbəyidir. Bu, düzgün qurulan tədris prosesinin uzunmüddətli nəticə verdiyini göstərir.

Bu uğura imza atan Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin ingilis dili müəllimi İlhamə Fərzəliyevanın sözlərinə görə, müəllim üçün ən vacib məsələ işini vicdan və sevgi ilə yerinə yetirmək, daim öyrənmək və inkişaf etməkdir. İlhamə müəllim hesab edir ki, təhsil yalnız dərs keçməkdən ibarət deyil. Əsas məqsəd şagirdə düzgün yanaşmaq, onu anlamaq və potensialını üzə çıxarmağa kömək etməkdir.

Maksimum nəticə əldə edən müəllimlər arasında Aytən Quliyeva da yer alıb. O, Hüseyn Cavid adına 5 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimidir. Artıq bir neçə dəfə sertifikatlaşdırma prosesində iştirak edən Aytən müəllim bu imtahanda da yüksək nəticə göstərərək uğurlu nəticə əldə edib: "Sualların məzmunu gündəlik dərs prosesinə uyğun olub və bu da müəllimlərin real bilik və bacarıqlarını obyektiv şəkildə qiymətləndirməyə imkan yaradıb. Sertifikatlaşdırma prosesi müəllimlərin peşəkarlığının inkişafı baxımından mühüm əhəmiyyət daşıyır".

Bu uğurlar bir daha göstərir ki, müəllimin öz üzərində daim çalışması, yeniliklərə açıq olması və peşəsinə sevgi ilə yanaşması sonda yüksək nəticələrin də əldə etməsinə imkan yaradır.

**Zəhra VƏLİYEVA**

# Şuşanın təhsil mərkəzi şöhrəti özünə qayıdır

## Şuşaya təkcə sakinləri yox, elm və təhsil də qayıtdı

*Şuşa şəhər 1 nömrəli tam orta məktəbin qarşısında dayanmışam. Tənəffüsdür. Uşaqlar gülüb-oynayır həyətdə. Biri həyəcanla buraxılış imtahanında neçə bal topladığından bəhs edir, digəri əlifba bayramında hansı şeiri söyləyəcəyindən. Məktəbə daxil oluram. Gülərüz bir xanım qarşılayır məni. Tanış gəlir siması. Bəli, bu odur. Azərbaycanın qəhrəman oğullarından biri olan mərhum Mikayıl Gözəlovun qızı Səbinə Gözəlova. Söhbətə başlayırıq, gözləri yol çəkir onun, sanki həmin günə-beş yaşında soyuq qış günü yaşadığı o çətin ana qayıdır:*



“1991-ci ilin soyuq 11 dekabr günü atam – Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Mikayıl Gözəlov öz iş otağında bir gün sonra həyata keçiriləcək Daşaltı əməliyyatı üçün son hazırlıqlar barədə öz könüllü döyüşçü yoldaşları ilə müzakirə aparan zaman otağa daxil olan şəxs tərəfindən güllələnib. Bu qətl planlı olub, çünki onun ətrafına toplanan könüllü döyüşçülər Şuşanın içimizdəki xainlər tərəfindən satılmasına imkan vermirdi. Atam özü də Şuşanın müdafiəsində əlində silah iştirak edir, mərkəzdən kömək istəyirdi. Lakin heç kimdən kömək gəlmir, əksinə, Şuşanı müdafiə edənlər tələyə çəkilib, öldürülürdü. Beş yaşım var idi həmin il, atam xain gülləsinə tuş gələndən sonra biz anamla birlikdə Şuşanı tərk etməyə məcbur qaldıq. Həmin gün Şuşadan atamın nəşini və xatirələrimizi götürüb Ağdama getdik. Atamı orada torpağa tapşırıb Bakıya yollandıq. Zaman bizi digər uşaqlardan tez böyütdü. Qəlbimizdə həm atamızın, həm də Şuşamızın həsrətini daşıyaraq keçdi illər. Böyüdük, təhsil aldım, Bakı şəhərində müəllim kimi fəaliyyətə başladım, sonra imtahan verib Qəbələ şəhərində yerləşən Şuşa məktəbinə direktor olaraq təyinat aldım. Şuşaya köçdüyümüz gün öncə Cıdır düzünə getdim, çünki atam oranı çox sevirdi. Öz ürəyimdə ruhun şad olsun, ata. Bu gün artıq Şuşa azaddır. Qeyrətli Vətən oğullarının Müzəffər Sərkərdənin sayəsində biz öz evimizə dönmüşük. Sənin canından çox sevdiyin Şuşa özümüzə qayıtdı, – dedim”.

Səbinə müəllim əlavə edir ki, bu təhsil ocağı 7 noyabr 2023-cü ildə dövlət başçısının iştirakı ilə açılıb. 960 şagird yerlik üçmərtəbəli bina beş blokdan ibarətdir. Burada hər biri 24 nəfərlik 40 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 texnologiya, 2 informatika otağı, STEAM mərkəzi, kitabxana, oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, yeməkxana, akt və idman zalları, tibb, müayinə və inzibati heyət üçün iş otaqları var. Məktəb üçün ayrılan ərazidə futbol meydançası və digər zəruri yardımçı binaların inşası yekunlaşıb. Azərbaycan dövlətinin Qarabağda və Şərqi Zəngəzurda həyata keçirdiyi bərpa və yenidənqurma prosesi çərçivəsində müasir, innovasiyalara əsaslanan təhsil ocaqlarının qurulmasına xüsusi diqqət ayrılır. Şuşadakı 1 nömrəli tam orta məktəb bunun daha bir əyani təsdiqidir. Müasir tələblərə cavab verən yeni təhsil müəssisəsi Şuşanın bərpa səviyyəsi ilə uzlaşmaqla yanaşı, “Böyük Qayıdış” proqramı çərçivəsində şəhərə qayıdan şagirdlərin ən qabaqcıl standartlara uyğun təhsil almasına xidmət edir. Üç ildir ki, Şuşa şəhər 1 nömrəli tam orta məktəbin direktoru olmağın şərəfini yaşadığını deyən müsahibim bildirir ki, bu məktəbdə işləmək, hər gün azad Şuşada dərsə tələsən uşaqların sevincinə şahid olmaqdan gözəl heç nə ola bilməz.



Səbinə müəllim ilə məktəbin uğurlarından söhbət edə-edə sinif otaqlarını gəzirik. Məktəbin müəllimi İlham Salmanovla tanış oluruq. Şuşanın müdafiəçilərindən biri, 31 ildir, pedaqoji fəaliyyətlə məşğul olan İlham müəllim həmin günləri yada salır: “Universiteti bitirəndən sonra azad təyinat alıb Şuşaya qayıdanda artıq torpağımıza qarşı təcavüzlər başlamışdı. İllərdir, təknəmizdən çörək yeyib, özünə ev-eşik quran ermənilər bizə silahlı hücumlar edirdi. 25 min nəfərin yaşadığı Şuşa rayonu 1992-ci ilin may ayına kimi özünümüdafiə batalyonunun könüllüləri, polislər tərəfindən qorundu, lakin içimizdəki xainlər Vətən üçün can verməyə hazır olan onlarla oğulu arxadan vurdu. Şuşa 28 il həsrətdə qaldı. Vətən savaşında ordumuz zəfər qazanıb torpaqları azad etdi. Bu gün Şuşa azaddır, uşaqlarımız öz yurdunda təhsil alır. Bütün bunlara dahi rəhbərin davamçısı Müzəffər Sərkərdənin uzaqgörən siyasəti nəticəsində nail olmuşuq. Arzu edirəm ki, bu nailiyyət davam etsin, biz dövlət başçısı ilə birlikdə sülhə nail olub, Zəngəzurdan keçib Naxçıvana – qədim Oğuz yurduna gələk. Artıq 3 ildir, evdən işə, işdən evə tələsir, Şuşasız keçən illərin əvəzini çıxarırıq. Məktəbin hər bir müəllimi və şagirdi dövlətimizə minnətdarlıq hissi ilə yaşayır”.

Sinif otağında olan şagirdlərə dəyir gözüm. Şuşasız doğulan şuşalılar. Bəli, onlar Şuşanı görmədən sevən şuşalı balalardır. Emil Əliyevin atasının polis zabiti olduğunu öyrənirəm. O, on birinci sinfi bitirir. Artıq buraxılış imtahanını da verib və nəticəsi ilə ailəsini və müəllimlərini sevindirib: “Şuşa haqqında nağıllar, əfsanələr dinləməklə keçib uşaqlığım. Tarix dərsini oxuyanda, işğal günlərini əzbərləyəndə tələsirdim ki, tez böyüyüm Şuşanı azad edim, bu cənnət uğrunda döyüşüm. Mənim qəlbim bu istəklə döyünən günlərdən birində Vətən savaşının başladığını eşitdim. Həmin gün – Şuşanın azad olduğu gün bizim evdəki sevinc səsləri hələ qulağımdadır. Şuşa azad oldu və biz evimizə qayıtdıq. Buraxılış imtahanında 200-dən artıq bal toplamışam, hədəfim maliyyəçi olmaq və təhsilimi bitirib yenidən Şuşaya qayıdaraq burada dövlətimə xidmət etməkdir. Məktəbimizdə bizim öz hədəflərimizə çatmağımız üçün hər bir şərait var. Və biz gənclər valideynlərimizin gəncliyindəki çətinlikləri yaşamadan azad Şuşada təhsil alır, yaşayırıq”.



Bu təhsil ocağında işlə təmin olunub öz yurduna qayıdan Elşən Əliyev vaxtilə burada yerləşən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa filialının Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisasına qəbul olub. Lakin tale ona təhsilini burada davam etdirməyi qismət etməyib. Mənfur düşmənin hücumları bütün şuşalı gənclər kimi onun da həyatını alt-üst edib: “1992-ci il mayın 8-də atam Əliyev Allahverdi Əsgər oğlu Böyük Kirs dağı uğrunda gedən döyüşlərdə şəhid oldu. Şuşa şəhəri işğal edildikdən sonra biz artıq bütün məcburi köçkünlər kimi Azərbaycanın müxtəlif rayonlarında məskunlaşmağa çalışdıq. Bir neçə ay ailə üzvlərimizlə Füzuli rayonunda, sonra isə Bakı şəhəri, Sabunçu rayonu, Bilgəh qəsəbəsində yerləşən “Qağayı” düşərgəsində məskunlaşdıq. 1995-ci ildə universiteti bitirib, Şuşa rayon 11 nömrəli tam orta məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi, 2007-ci ildən 2023-cü ilin noyabr ayının 1-nə dək kimi həmin məktəbdə təşkilatçı müavin kimi fəaliyyətimi davam etdirmişəm. 2020-ci il 44 günlük müharibəsində rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm qələbəyə imza atdıqdan sonra artıq mən birmənalı olaraq gələcək fəaliyyətimi doğma Şuşa şəhərimizdə davam etdirməyi qarşıma məqsəd qoydum. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən bütün rayonlarda, xüsusilə Şuşa şəhərində böyük quruculuq işləri davam etdirilir, yeni yaşayış kompleksləri və məktəblər tikilir. Doğma yurda qayıdış sevinci mənə də nəsib oldu. 2024-cü il may ayının 10-dan Şuşa şəhərində yaşayıram. Prezident İlham Əliyev bütün işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işlərinə şəxsən xüsusi diqqət ayırır. Bu da insanların rahat və firavan yaşamasına səbəb olur”.

Azərbaycanın ictimai-siyasi fikir tarixində mühüm yer tutan bir sıra görkəmli şəxsiyyətlər, maarifçi ziyalılar məhz Şuşada doğulub boya-başa çatıblar. Həmin şəxslər Şuşada fəaliyyət göstərən, dövrün qabaqcıl təhsil müəssisələrinin yetirmələri olublar. Belə ki, Şuşada fəaliyyət göstərən xəttatlıq, teatr, musiqi, vokal, eləcə də ilk qızlar, rus-tatar məktəbləri, qızlar seminariyası, realnı məktəb yerli əhalinin intellektual səviyyəsini, dünyagörüşünü inkişaf etdirməyə, şəhərin ziyalı səviyyəsini qoruyub saxlamağa imkan verdi. Bu gün Şuşa şəhər 1 nömrəli tam orta məktəbə ilk qədəmlərini atan, buranı bitirən hər bir məktəbli də həmin şanlı keçmişin bu günümüzdəki davamçılarıdır.

**Ramiyə ƏKBƏROVA**



## NDU nəzdində Beynəlxalq Kembric Məktəbində “Mədəniyyət Festivalı” keçirilib

Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Beynəlxalq Kembric Məktəbində “Mədəniyyət Festivalı” təşkil olunub.

Qlobal perspektivlər fənninin bir parçası olaraq hazırlanan festivalda universitetin rektoru Elbrus İsayev də iştirak edib.

Festival çərçivəsində 6-cı və 7-ci sinif şagirdlərindən ibarət 15 qrup müxtəlif ölkələri təmsil edib. Şagirdlər seçdikləri ölkələr üzrə geniş araşdırma apararaq onların tarixini, mədəniyyətini, musiqisini, rəqsini və digər xüsusiyyətlərini əhatə edən təqdimatlarla çıxış ediblər. Bununla yanaşı, həmin ölkələrə məxsus milli yeməklərin təqdim olunması tədbirə xüsusi rəng qatıb.

Tədbirin əsas məqsədi şagirdlərin dünyagörüşünü genişləndirmək, onların tədqiqat aparmaq, məlumat toplamaq və təqdimetmə bacarıqlarını inkişaf etdirmək olub. Eyni zamanda festival analitik düşünmə və komanda şəklində işləmə vərdişlərinin formalaşdırılmasına da töhfə verib.

Rəngarəng və interaktiv şəraitdə keçirilən festival şagirdlərin həm fərdi, həm də qrup şəklində bacarıqlarını nümayiş etdirməsi baxımından uğurla yekunlaşıb.





# İlmə-ilmə tarixə yaddaş olan naxışlar



### *Hər bir naxış azərbaycanlı qadınların əl izidir*

Hər bir xalq dünya mədəniyyətini öz töhfələri ilə zənginləşdirir və bütün bunlar bəşəriyyətin mədəni irsinə çevrilir. Milli və ümumbəşəri mahiyyət daşıyan mədəni dəyərlərimizdən biri də xalçalarımızdır. Həmin milli sərvətlərimizi ulu nənələrimiz, ana və bacılarımız bayatı deyə-deyə toxuyub və nəsildən-nəslə ərmağan ediblər. Xalçalar maddi ehtiyacdan yaransa da, daha çox mənəvi ruhun ifadəçisi kimi meydana gəlib. Xalçaçılığın Azərbaycanda çox qədim tarixi var. Arxeoloji materiallar və yazılı mənbələr əcdadlarımızın hələ eramızdan əvvəl də bu sənətlə məşğul olduğunu sübut edir.

Tarixin yaddaşını vərəqlədikcə III-VII əsrlərdə Azərbaycanda xalça sənətinin daha sürətlə inkişaf etdiyini, ipəkdən, qızıl və gümüş saplardan nəfis xalçalar toxunduğunu görürük. “Kitabi-Dədə Qorqud” dastanında, klassik şairlərimiz Nizami və Xaqaninin əsərlərində xalçalarımız tərənnüm olunub. Həmçinin Avropa rəssamlarının əsərlərində, miniatürlərdə Azərbaycan xalçalarına aid nümunələr əksini tapıb. Buna XV əsr Niderland rəssamları Hans Memlinq, Van Eyk, alman rəssamı Hans Holbeynin tablolarını misal göstərmək kifayətdir. Görkəmli xalçaşünas alim Lətif Kərimov “Azərbaycan xalçası” adlı üçcildliyində xalçaçılığın arealını cənuba və şimala bölmədən bütövlükdə Azərbaycan xalçasının inkişaf genezisini izləyərək ilk dəfə olaraq xalça növlərinin dəqiq təsnifatını vermiş, sırf Azərbaycan xalçalarını İran, Qafqaz və sair xalçalarından fərqləndirmişdir. Çoxlu faktiki materialı öyrənmək əsasında o belə bir əsaslandırılmış nəticəyə gəlmişdir ki, “...Azərbaycan həmişə Qafqaz xalçaçılığı üçün məktəb olmuşdur”. “Qafqaz” xalçaları kimi şöhrət qazanmış xalça kompozisiyalarının 90 faizini Azərbaycan ustalarının kompozisiyaları təşkil edir”.

Bakı, Naxçıvan, Qarabağ, İrəvan, Şirvan, Quba, Gəncə, Qazax-Borçalı, Təbriz kimi əsas xalça qruplarında təsnif və tədqiq olunan Azərbaycan xalçaları aid olduğu bölgələrin coğrafi, etnik, mədəni müxtəlifliyini əks etdirir. Qərbi Azərbaycan xalçaları da vaxtilə bütün dünyada məşhur olmuşdur. Lakin 160 il davam edən köçürmə siyasəti nəticəsində kəndlər boşalmış və təbii olaraq xalçaçılıq ənənəsi də itib batmış və yaxud da erməniləşdirilmişdir. Qərbi Azərbaycanın Loru, Şəmsəddin, Aparan, Talın, Əştərək, Ərzin, Axtı, Qırmızıkənd, Basarkeçər, Kəvər, Sərdərabad, Dərələyəz, Vedi, Qəmərli, Zəngibasar kimi bölgələri olduqca müxtəlif və rəngarəng xalçaları ilə seçilirdi. Qərbi Azərbaycan ərazisində toxunan xalçalar sənətkarlıq imkanlarına, toxunma texnologiyasına və rəng-naxış kompozisiya həllinə görə şərti olaraq Ağbaba, Şörəyel, Loru, Pəmbək, Şəmsəddin, Göyçə, Zəngibasar, Vedibasar, Qırxbulaq, Əştərək, Aran, Dərəçiçək, Talın, Zəngəzur, Dərələyəz və İrəvan mahalları qruplarında birləşdirilir. Bunların sırasında İrəvan xalçalarına diqqət yetirəndə bu xalçaların texniki və bədii təhlili tarixən bu bölgədə yaşayan azərbaycanlıların adət-ənənələrinin, məişətinin, mədəniyyətinin araşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Burada dekorativ-tətbiqi sənət sahələri arasında xalçaçılıq xüsusi yer tutmuşdur. Naxış kompozisiyasına görə Qazax, Qarabağ və Təbriz xalçaçılıq məktəblərinə daha yaxın olan İrəvan xalçaçılıq məktəbinin nümunələri zaman-zaman xarici ölkələrə daşınmış, erməni kolleksiyaçılarının “sərvətinə” çevrilmişdir. Bu gün bir çox yerdə ermənilərə məxsus olduğu deyilən, sərgilənən xalçalar azərbaycanlı anaların göz nuru, əl əməyidir.

İrəvan xanlığının həyatında mühüm rol oynayan sənətkarlıq müxtəlif sahələri özündə ehtiva edirdi. Azərbaycanlıların ənənəvi sənətkarlıq sahələri olan toxuculuq və dulusçuluq bütün Qərbi Azərbaycan boyunca geniş yayılmışdır. Xalça, palaz istehsalı xüsusilə seçilirdi. Həmin dövrlərdə bu ərazilərdə olan səyyahlar yerli əhalinin qoyun saxladığı və həmin yunları əyirərək boyayıb xalça, palaz, çul, qış geyimləri toxuduqlarını qeyd ediblər. Bu da onu bir daha sübut edir ki, bu ərazilərdə əzəldən azərbaycanlılar yaşayıb. Çünki tarixən qoyunçuluqla məşğul olmayan ermənilər xalça, kilim, palaz, şəddə, eləcə də digər toxuculuq məmulatlarının meydana gəlməsində rol oynaya bilməzlər. Həmin dövrdə bu bölgələrdə olan səyyah İ.Şopen hər ailədə toxuculuq dəzgahının olmasından xüsusilə bəhs edir. Toxuculuqda xüsusi yerə malik olan bir sahə də boyaqçılıq olmuşdur. Bu bölgədə qırmızı rəngin müxtəlif çalarlarından hazırlanmış yun saplar boyanmışdır. Bu boyaq maddəsi haqqında tədqiqat aparan Rusiya Elmlər Akademiyasının akademiki Qammel İrəvanda hazırlanan bu boyağı Meksika qırmızısı ilə müqayisə etmişdir. Tarixi faktlar təsdiqləyir ki, vaxtilə İrəvan şəhərinin mərkəzində yerləşən Şilaçi məhəlləsində boyaq bitkilərindən al-əlvan rənglər alınmış, basmanaxışlı parçalar istehsal edilmişdir.



Qərbi Azərbaycan zililərinin bəzilərinin yerliyi palaz texnikası – sadə keçirtmə üsulu ilə, bir qismi isə mürəkkəb dolama üsulu ilə naxışlanıb. Xalçaçılıq sənətinin bu mərhələsi, eyni zamanda xovsuz məişət əşyalarının yaranması ilə də yadda qalır. Həm forma, həm də məzmunca dəyişmə prosesi nəticəsində tarixən Qərbi Azərbaycan əhalisinin məişətinin ayrılmaz hissəsi olmuş məfrəş, xurcun, heybə, çuval, çul, yüküzü, sicim, çatı və sair kimi məişət əşyaları yaranır.

İrəvanla coğrafi yaxınlığı Zəngibasar bölgəsinin mədəni mühitinin formalaşmasına öz təsirini göstərib. Bölgənin Arbat, Ağağı Necilli, Qaraqışlaq, Dəmirçi, Zəngilər, Zəhmət, Rəncbər, Uluxanlı, Hacı Elləz, Şorlu kimi məntəqələrində toxunan xalçalar öz incəliyi, zərifliyi ilə seçilirdi. Kompozisiya quruluşuna görə bu ərazidə toxunan xalçaların Qazax-Borçalı və Təbriz xalça məktəbi ilə yaxınlığı hiss olunur.

Araşdırmalar göstərir ki, Zəngəzur mahalının xalçaçılıq ənənəsi isə daha çox Qarabağ xalça qrupunun ənənələrinə yaxındır. Buna səbəb Zəngəzurun tarixən Qarabağ xanlığı və burada yaşayan əhali ilə mədəni, iqtisadi ələqələri və yaxınlığı idi. Mədəni-sosial anlamda Qarabağı Zəngəzurdan ayırmaq mümkün deyil. Naxçıvan, Qarabağla həmsərhəd olan Zəngəzur folklorunda, tətbiqi sənətində adıçəkilən bölgələrin təsiri duyulur. Avropanın bir çox tarixi mənbələrində “Cənubi Qafqazın İsveçrəsi” adlandırılan Dərələyəz mahalını Azərbaycanın xalçaçılıq sənətinin beşiklərindən biri hesab etmək olar. Dərələyəz mahalı Təbrizlə İrəvanı Qarabağa bağlayan yolun üzərində yerləşirdi. Bölgənin Almalı, Bülbülələn, Qabaxlı, Qaraqaya, Qovuşuq, Ələyəz, Əmağu, Kədikvəng, Gülüdüzü, Sallı, Hors, Çivə kəndlərində xalçaçılıq geniş yayılmışdı. Dərələyəzdə toxunan xalçalar kompozisiya quruluşuna görə həm Qarabağ, həm də Qazax-Borçalı xalça qrupunun nümunələrinə yaxındır. Xalçaçılar, əsasən, qara və qonur qoyun yunundan hazırlanmış iplərdən istifadə ediblər.

Beləliklə, İrəvan qrupu xalçalarının tarixi-etnoqrafik, sənətkarlıq baxımından təhlili onların Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi, tarixi keçmişimizin əvəzsiz yadigarı olduğunu bir daha təsdiq edir. İrəvan xanlığına məxsus olan bədii tikmə nümunələrindən ikisi Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır. 1827-ci ildə Ruslar İrəvan şəhərini zəbt edərkən qənimət kimi götürdükləri İrəvan xanlığının bayraqları da bədii tikmə sənətinin nadir nümunəsidir.

Azərbaycan xalçaları barədə aparılan araşdırmaları oxuduqca, tarixini öyrəndikcə uşaqlıq illərimdə gördüyüm bir hadisəni xatırlayıram. Həmin illərdə ermənilər tez-tez Azərbaycanın başqa rayonlarına alış-veriş üçün üz tutduqları kimi Naxçıvana da gələrdilər. Kimisi tərəvəz satmağa, kimisi bu qədim torpağın bərəkətli bağlarında bitən meyvələrdən alıb aparmağa, kimisi isə təzə xalçaları köhnələri ilə dəyişməyə gələrdilər. Bizim qadınlar da evlərində dədə-babadan qalan köhnə keçələri, kilim, palaz, xalçaları sevinə-sevinə həmin təzə xalılarla dəyişib evə gətirərdilər. Kim deyərdi ki, şeytanın ağlına gəlməyən ermənilərin ağlına gəlir. Kim düşünərdi ki, onlar bu köhnə xalıları, kilimləri özlərinin tarixi keçmişi kimi gələcəkdə xarici ölkələrə göndərib “bizimdir” deyəcəklər. Elə də oldu, indi dünyanın bir çox muzeylərində erməni “tarixinin” inciləri kimi sərgilənən qədim toxuculuq məmulatlarının bir çoxu həmin illərdə onların bizə “bahalı” xalça verib qarşılığında aldıqlarıdır. Ermənilər bununla da kifayətlənməyib həmin xalıların naxışları əsasında yeni xalçalar, kilimlər, palazlar toxudular.





Lakin onlar bir şeyi unudurdular, tarixin yaddaşına yazılanlar heç vaxt silinmir. Dünyanın harasında olursa olsun, bizim milliliyimizi, qədimliyimizi öz naxışlarında yaşadan tikmə, toxuma işləri “Mən azərbaycanlı qadınların əl işiyəm”, – deyir hər gələnə. İlmə-ilmə tarixə yaddaş olan naxışlar hər şeyi sübut edir.

**“Şərq qapısı”**



# Naxçıvanın “Turan” Döyüş Klubunun gücü idman arenasında bir daha təsdiqləndi




Bakıda keçirilən və Ümummilli Lider Heydər Əliyevin doğum gününə həsr olunan “Legion Fighting Championship – LFC” turniri Naxçıvan idmanının növbəti uğuru ilə yadda qaldı. 52 klubdan 526 gənc istedadın qüvvəsini sınadığı bu nüfuzlu yarışda Naxçıvan idmanı növbəti parlaq qələbəsinə imza atdı. Naxçıvanın “Turan” Döyüş Klubu möhtəşəm nəticə göstərərək 38 qızıl, 22 gümüş medalla komanda hesabında birinci yerə yüksəldi və qalibiyyət kubokunu qaldırdı. Turnirdə qazanılan uğurdan sonra klub rəhbərliyi və idmançılar təəssüratlarını “Şərq qapısı” ilə bölüşərək bu qələbənin arxasında dayanan zəhmətdən danışdılar.

Dünya və Avropa çempionu, Azərbaycan yığmasının üzvü Röya Abdullayeva yarışın gərgin və yüksək rəqabət şəraitində keçdiyini bildirib: “Bu turnirə hazırlıq mərhələsində hər bir idmançımız öz üzərində maksimum səylə çalışdı. Komandamızın əldə etdiyi birincilik bizim birliyimizin nəticəsidir. “Turan” Döyüş Klubunda hökm sürən qarşılıqlı dəstək və yüksək motivasiya mühiti bizi hər zaman daha böyük hədəflərə ruhlandırır”.

Gənc nəslə tövsiyələrini verən çempion uğurun sirrinin özünəinamdan keçdiyini qeyd edib: “Gənc idmançılarımıza hər zaman öz məqsədlərinə inanmağı və qarşılarına çıxan çətinliklərdən qorxmamağı tövsiyə edirəm. Zəfər maneələri aşanlarındır”.

Dəfələrlə respublika çempionatları və turnirlərinin qalibi olan yığma komandanın üzvü Nurəddin Əliyev turnirdəki parlaq çıxışı yüksək hazırlıq səviyyəsi ilə əlaqələndirir: “Bu turnirdə nümayiş etdirdiyimiz nəticə aylarla davam edən məsuliyyətli hazırlıq prosesinin bəhrəsidir. Rəqiblərin güclü və təcrübəli olmasına baxmayaraq, biz bir an belə özünəinamımızı itirmədik. Hər bir qarşılaşmada sona qədər, son saniyəyədək mübarizə aparmaq bizim əsas prinsipimiz idi”.

Nurəddin, həmçinin bu uğurun yerli səviyyədə təsirini də vurğulayıb: “Belə qələbələr biz idmançılar üçün növbəti hədəflərə doğru böyük bir stimuldur. “Turan” Döyüş Klubunun son illərdəki uğurları Naxçıvanda döyüş idman növlərinə olan kütləvi marağın artmasında mühüm rol oynayır”.

“Turan” Döyüş Klubunun rəhbəri, baş məşqçi Xəyal Abdullayev bildirib ki, Bakıda əldə olunan bu möhtəşəm nəticə aylarla davam edən sistemli və peşəkar hazırlıq prosesinin yekunudur: “Klubun fəaliyyət fəlsəfəsi yalnız medallar qazanmaq üzərində yox, həm də sağlamdüşüncəli, yüksək intizamlı və vətənpərvər bir gəncliyin formalaşdırılması üzərində qurulub. Turnirdə iştirak edən 30 nəfərlik heyətin hər bir üzvü tatamiyə çıxarkən üzərinə düşən məsuliyyəti dərindən hiss edib və Naxçıvan idman məktəbinin sarsılmaz gücünü bir daha bütün respublikaya nümayiş etdirib”.

Baş məşqçi qeyd edib ki, əldə olunan nailiyyətlər klub daxilində tətbiq olunan düzgün məşq metodikasının və idmançıların nümayiş etdirdiyi sonsuz əzmkarlığın bariz göstəricisidir: “Belə mötəbər yarışlar gənclərin inkişafı üçün mühüm platforma rolunu oynayır və gələcəkdə beynəlxalq arenalarda qazanılacaq böyük uğurların möhkəm təməlini qoyur”.

Qarşıda daha böyük hədəflərin olduğunu vurğulayan Xəyal Abdullayev komandanın bu qələbəni yeni zəfərlər üçün stimul kimi qəbul etdiyini və hazırlıqların eyni templə davam edəcəyini əlavə edib.

Bu möhtəşəm zəfər, sadəcə, qazanılan medalların sayında və qaldırılan kubokda təcəssüm etmir. “Turan” Döyüş Klubunun “LFC” turnirindəki mütləq üstünlüyü, ilk növbədə, Naxçıvan idman məktəbinin köklü ənənələrinin, peşəkar hazırlıq sisteminin və gənc nəslin tükənməz potensialının parlaq təzahürüdür. Döyüş meydanında nümayiş etdirilən polad iradə və məğlubedilməz ruh bir daha təsdiqlədi ki, zəhmətlə keçirilən məqsədyönlü hazırlıq ən uca zirvələrin fəth olunması üçün əsas zəmindir. Şübhəsiz ki, bu qələbə klubun heyəti üçün daha böyük hədəflərə doğru açılan yeni bir üfüq, muxtar respublika idmanının gələcək uğurları üçün mötəbər bir müjdədir. Bu nəticə həm də göstərir ki, düzgün qurulmuş taktika və komanda daxilindəki səmimi birlik istənilən çətin sınaqdan alnıaçıq çıxmağın yollarından biridir. Hər bir idmançının göstərdiyi şücaət gənc nəslin idman arenalarında nə qədər iddialı və qətiyyətli olduğunu bir daha nümayiş etdirdi.

✍ **Elnurə CƏFƏROVA**

# Qazanılan uğurlu nəticələr gələcəkdə yeni zəfərlərin müjdəçisidir




İstanbulda keçirilən Şotokan karate (WSF) üzrə dünya səviyyəli turnirdə Azərbaycanın qazandığı tarixi qələbənin əsas pay sahiblərindən biri də Naxçıvan karateçiləri oldu. Azərbaycan millisinin 55 qızıl medal qazanaraq komanda hesabında 1-ci olduğu möhtəşəm turnirdən Naxçıvanı təmsilçiləri Vətənə 9 medal ilə qayıdıblar. Yarışın qəhrəmanları və onların məşqçisi təəssüratlarını “Şərq qapısı” qəzeti ilə bölüşdülər.

11 yaşlı dünya çempionu Xədicə Bayramova turnirdən həm qızıl, həm də gümüş medalla dönməyin sevincini yaşayır: “Mən bu yarışa yola düşərkən qarşıma tək bir məqsəd qoymuşdum, Azərbaycanın adını uca tutmaq. Tatamidə rəqiblərimin kifayət qədər güclü və təcrübəli olmasına baxmayaraq, qələbəyə olan sarsılmaz inamım məni çempionluğa daşıdı. Xüsusilə final görüşündən sonra bayrağımızı ucaltmaq, o möhtəşəm qələbə sevincini yaşamaq mənim üçün sözlə ifadə olunmayacaq qədər böyük bir qürur idi. Lakin bu uğurla kifayətlənmək niyyətim yoxdur. Gələcəkdə daha böyük turnirlərdə yeni çempionluqlar qazanmaq və ölkəmi layiqincə təmsil etmək üçün var gücümlə çalışmağa davam edəcəyəm”.

Kadetlər arasında gümüş medal qazanan 14 yaşlı Nizami Orucov da yarışın olduqca gərgin keçdiyini deyir: “Öz yaş qrupumda dünyanın ən güclü karateçiləri ilə qarşılaşmaq mənə əvəzsiz bir təcrübə qazandırdı. Hesab edirəm ki, çıxdığım hər döyüş mənə yeni bir texnika, yeni bir baxış bucağı öyrətdi. İstanbulda qazandığım gümüş medal mənim üçün, sadəcə, bir mükafat deyil, həm də gələcək uğurlarım üçün böyük bir motivasiya mənbəyidir. Beynəlxalq arenada Azərbaycanın adından çıxış etməyin məsuliyyətini hər saniyə hiss edirdim. İndi qarşıdakı əsas hədəfim səhvlərim üzərində işləyib, növbəti yarışlarda mütləq qızıl medalı qazanmaqdır”.

Naxçıvan Muxtar Respublikası “Qapıcıq” karate-do idman klubunun məşqçisi Niyaməddin Əliyev isə bildirir ki, turnir idmançıların hazırlığı üçün böyük sınaq idi: “İstanbulda keçirilən bu turnir idmançılarımızın həm fiziki gücünü, həm də psixoloji hazırlığını sınayan ciddi bir imtahan idi. 117 nəfərlik heyətin tərkibində naxçıvanlı idmançıların fərqlənərək ön sıralarda yer alması qətiyyən təsadüfi deyil. Biz bu yarışa çox gərgin və sistemli hazırlıq prosesi keçərək gəlmişdik. Uşaqlar hər gün saatlarla davam edən məşqlərdə həm texniki fəndləri cilaladılar, həm də yüksək dözümlülük nümayiş etdirdilər. Qazanılan 9 medal Naxçıvan “Qapıcıq” karate məktəbinin düzgün strategiya ilə inkişaf etdiyinin bariz göstəricisidir. İnanıram ki, bu gənclərin əzmi onları gələcəkdə olimpiya zirvələrinə qədər ucaldacaqdır”.

Gənc yaşlarına baxmayaraq, dünya səviyyəli rəqabətdə özlərini təsdiq edən bu idmançılar həm şəxsi əzmkarlıqlarının, həm də məşqçi korpusunun peşəkar əməyinin ən parlaq bəhrəsini nümayiş etdirdilər. Qazanılan medallar, eyni zamanda Azərbaycanın beynəlxalq idman nüfuzunun möhkəmlənməsinə verilən dəyərli töhfədir. Beynəlxalq tatamilərdə qazanılan bu uğurlu nəticələr gələcəkdə yeni zəfərlərin də böyük müjdəçisidir.

✍ **Elnurə CƏFƏROVA**

# Gəncə Dövlət Kukla Teatrı Naxçıvana qastrol səfəri edib

“Azərbaycan Mədəniyyəti – 2040” konsepsiyası və ölkə başçısının mədəniyyətin inkişafına dair müvafiq sərəncamlarının icrası çərçivəsində Gəncə Dövlət Kukla Teatrı Naxçıvana qastrol səfəri edib. Qonaq kollektiv Naxçıvan Dövlət Kukla Teatrı səhnəsində ingilis xalq nağılı əsasında hazırlanmış “Üç donuz balası” tamaşasını uğurla nümayiş etdirib.



Balaca tamaşaçıların böyük marağına səbəb olan səhnə əsəri alqışlarla qarşılanıb və gün ərzində təqdim olunan tamaşa yüksək əhvali-ruhiyyə yaradıb.

Qastrol səfəri çərçivəsində Naxçıvan Dövlət Kukla Teatrının direktoru Səyyad Məmmədov tərəfindən Gəncə teatrının aktyor heyətinə diplomlar təqdim olunub. Eyni zamanda Gəncə Dövlət Kukla Teatrının baş rejissoru Şamil Məmmədova xatirə hədiyyəsi təqdim edilib.

Qarşılıqlı mədəni əməkdaşlığın göstəricisi olaraq Şamil Məmmədov da Naxçıvan Dövlət Kukla Teatrına xatirə hədiyyələrini təqdim edib.

Qeyd edək ki, bu kimi qastrol səfərləri ölkə başçısı İlham Əliyev tərəfindən imzalanmış mədəniyyət sahəsinin inkişafına dair sərəncamların icrasına uyğun olaraq həyata keçirilir və ölkəmizdə teatrlararası əlaqələrin genişlənməsinə, milli-mənəvi dəyərlərin təbliğinə mühüm töhfə verir.

## Bildiriş

Naxçıvan Dövlət Universiteti 2025-2026-cı tədris ilinin yaz semestrinin imtahan sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır:

1. Naxçıvan Dövlət Universitetində qiyabi şöbə (əlavə ali təhsil daxil olmaqla) üzrə bütün ixtisaslarda yaz semestrinin imtahan sessiyası 1 iyun 2026-cı il tarixdən başlayır və 20 iş günü davam edir.
2. Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.

## Elan

Naxçıvan şəhəri Naxçıvan Bələdiyyəsi dəyəri 25000-27000 manat aralığında minik avtomobil alınması üçün müsabiqə elan edir. Müsabiqədə iştirak etmək istəyən şirkətlər 05.05.2026-cı il tarixdən 13.05.2026-cı il tarixədək Naxçıvan şəhəri Naxçıvan Bələdiyyəsinə müraciət edə bilərlər. Nəqliyyat vasitəsinin alınmasında üstünlük yerli istehsaldan olan nəqliyyat vasitəsinə veriləcəkdir.

***Ünvan: Naxçıvan şəhəri, Kazım Talıblı küçəsi, ev 20***
***Əlaqə telefonu: 050-633-21-01***

## İtmişdir

Ordubad rayon Dəstə kənd sakini Cəfərov Həsən Əbdülsəməd oğlunun adına olan JN-556$^{B}$ nömrəli, 10700018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Unus kənd sakini Qocayeva Nigar Həbib qızının adına olan JN-140$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Xəlilov Əli Sənan oğlunun adına olan gizirin SQ-0021291 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

“Alüminium Qablar Zavodu” ASC-yə məxsus möhür və ştamp itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndi, 5-ci küçə, 33$^{E}$ ünvanında yerləşən Səfərov Əsgər Əli oğluna məxsus 22801 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər Qaraçuq kəndində yerləşən Əliyev Elxan Əkbər oğluna məxsus JN-586$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbəsində Nəzərov Nuşirəvan Nadir oğluna məxsus torpaq sahəsinin 01.04.2019-cu il tarixli, A-012407 nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Baxşəliyev Elmar Vəli oğlunun adına olan 75-CB-792 nömrəli avtomobilin BB-726906 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Qaraağac kəndində yaşamış Ələkbərov Ağahüseyn Əkbər oğlunun adına olan JN-677$^{A}$ nömrəli, 10100028 kodlu və JN-677$^{B}$ nömrəli, 10100028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Azərbaycan küçəsi, döngə 4, ev 14 ünvanında yaşamış Musayev Məhərrəm Musa oğlunun adına olan 1494 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Ordubad rayon Vənənd kəndində yaşamış Fərəcov Nəcəf Bəşir oğlunun adına olan JN-591$^{C}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayon Gömür kəndində Mustafalı Abbas Mustafa oğlu və Mustafalı Niyaməddin Mustafa oğlunun adına verilmiş 07.07.2023-cü il tarixli, 897 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Hacıyeva Aygül Mütəllim qızına verilmiş Culfa rayon Milax kəndində yerləşən JN-203$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Əsədov Turqut Sərbəst oğlunun adına olan Naxçıvan şəhəri, Tumbul kəndi, 5-ci küçə, 1/3$^{D}$ ünvanında yerləşən torpaq sahəsinə məxsus 18.05.2016-cı il tarixli, A-013905 nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunda yaşamış Səfərov Hüseyn Yədulla oğlunun adına verilmiş JN-269$^{A}$ nömrəli, 10207028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Abdinov Mahmud Nağı oğlunun adına olan Ordubad rayon Gənzə kəndində yerləşən A-015283 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: RƏMZİ TAHİRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 91

Nömrəyə məsul: Nail Əsgərov, Zəhra Vəliyeva, Elnurə Cəfərova
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.